QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 224 (6188) 15 dekabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Mehriban Əliyeva: Ümummilli lider Heydər Əliyevin unudulmaz xatirəsini ehtiramla yad edirəm

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar...



Bax 2

## Azərbaycanlı əsirlər və erməni girovluğunda saxlanılan Şahbaz Quliyev və Dilqəm Əsgərov Vətənə gətiriliblər

Bax 5



Rusiya Federasiyasının Prezidenti, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikası baş nazirinin imzaladıqları 2020-ci il 10 noyabr tarixli üçtərəfli...

## "Erməni dövlətini məhv etdik və ərazimizdə cinayət rejiminə son qoyduq"

*Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrlərini qəbul edib*



Bax 3

## "Prezident İlham Əliyev ABŞ tərəfindən Türkiyəyə qarşı tətbiq olunan birtərəfli sanksiyaları qəbuledilməz hesab edir"



Prezident İlham Əliyev S-400 hava hücumundan müdafiə sistemlərinin alınmasına görə ABŞ tərəfindən Türkiyəyə qarşı tətbiq olunan birtərəfli sanksiyaları qəbuledilməz hesab edir. NATO-ya üzv bəzi ölkələr tərəfindən analoji hava hücumundan müdafiə sistemi istifadə edildiyi halda, Türkiyəyə qarşı sanksiyaların tətbiq olunması ədalətsizlikdir. Dövlətimizin başçısı bu halı ikili standartların təzahürü və...

Bax 7

## Yeni Azərbaycan Partiyası "YAŞAT" Fonduna 100 min manat vəsait köçürüb

Yeni Azərbaycan Partiyası (YAP) işğal altında olan torpaqlarımızın azad edilməsi və Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə Prezident İlham Əliyevin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə yaradılmış "YAŞAT" Fonduna 100 min manat...

Bax 5

Bax 9

## Roma şəhərinin meri Azərbaycana təşəkkür edib



Roma şəhərinin tarixi ərazisi olan Fori İmperialidə yerləşən Via Alessandria küçəsində arxeoloji qazıntı işlərinin tamamlanması və həmin işlər vaxtı aşkarlanmış heykəltəraşlıq və memarlıq tapıntılarının təqdimatı ilə bağlı Roma şəhərinin meri Vircinia Racci, Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə və şəhərin digər rəsmilərinin iştirakı ilə Romanın məşhur...

## Uşaqların tibbi maskadan istifadəsi zəruridirmi?- ÜST açıqladı



Bax 10

## Bəhruz Quliyev: "Bundan sonra Minsk qrupu hansı istiqamətdə fəaliyyət göstərə bilər?"



Bax 8

## Artur Vanesyan: "Paşinyanla yalnız istefa müzakirəsi şərtilə görüşərəm"



Bax 10

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər





## Mehriban Əliyeva: Ümummilli lider Heydər Əliyevin unudulmaz xatirəsini ehtiramla yad edirəm

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:

"Bu gün - 12 dekabr müstəqil Azərbaycanın inkişafında misilsiz xidmətləri olan dahi şəxsiyyət Heydər Əliyevin anım günüdür. Ümummilli lider Heydər Əliyevin unudulmaz xatirəsini ehtiramla yad edirəm. Ölkəmizə sülh və tərəqqi arzulayıram".









***Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 17 il keçir. AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.***

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu. Azərbaycanın dövlət himni səsləndirildi. Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloqalim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

x x x

Vəfatından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Ulu öndər Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan bu dahi insan öz nəcib əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş, canlı əfsanəyə çevrilmiş ən böyük azərbaycanlıdır.

Ümummilli Liderin hakimiyyətdə olduğu 35 ildə Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç bir hakimiyyət sahibi etməyib. Meydana silahsız gələn bu dahi insan qüdrətli ordu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlunun danılmaz xidmətlərindən biri güclü, sabitliyə qovuşmuş Azərbaycan idisə, digəri, özünə layiq siyasi varisin yetişdirilməsi idi. O, öz baxışlarını, ideyalarını, öz yolunu davam etdirməyə qadir bir Prezident yetişdirdi.

Ulu Öndərimizin əbədiyyətə qovuşmasının 17-ci ildönümü bu dahi şəxsiyyətin ən böyük arzusunun - işğal altındakı torpaqlarımızın azad olunması ilə nəticələnən şanlı Qələbəmizin sevincini qeyd etdiyimiz bu tarixi günlərə təsadüf edir. Əbədiyaşar Liderin ən böyük arzusu tarixi torpaqlarımızın işğaldan azad edilməsi, bütün ömrü boyu sədaqətlə xidmət etdiyi doğma Azərbaycanımızın ərazi bütövlüyünün bərpası idi. Ümummilli Lider illər öncə böyük uzaqgörənliklə deyirdi: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".

Həmin vaxt 17 ildən sonra yetişdi. Dahi şəxsiyyətin bu arzusunu, vəsiyyətini onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyevin rəhbərliyi ilə Ümummilli Liderin qurucusu olduğu rəşadətli Azərbaycan Ordusu yerinə yetirdi. İldən-ilə güc toplayan Azərbaycan, onun rəşadətli Ordusu düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın döyünən ürəyi olan Şuşada qürurla dalğalanmağa başladı. Dəmir yumruqla beli qırılan, başı əzilən düşmən kapitulyasiya aktını imzalamağa məcbur oldu, ərazi bütövlüyümüz təmin edildi. Öz liderinə, Ali Baş Komandanına inanan və güvənən bu ordu, igid Azərbaycan əsgəri 30 illik işğala qanı-canı bahasına son qoydu.

Vətən müharibəsində qazanılan Böyük Qələbə münasibətilə Bakıda keçirilən möhtəşəm Zəfər paradı ümummilli lider Heydər Əliyevin əbədiyaşar ideyalarının onun layiqli siyasi varisi, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin təntənəsi oldu.

# “Erməni dövlətini məhv etdik və ərazimizdə cinayət rejiminə son qoyduq”

*Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrlərini qəbul edib*



## Rəsmi xronika

Prezident İlham Əliyev “Hərbi vəziyyət dövründə komendant saatının tətbiq edildiyi ərazilərin komendantının təyin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 sentyabr tarixli 2281 nömrəli Sərəncamının ləğv edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanın ödənilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

---

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dan olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

-Son görüşümüzdən uzun müddət keçib, bu, ötən il olmuşdur. Bu vaxt ərzində bir çox hadisələr baş vermişdir. Birincisi, pandemiya bütün dünyada vəziyyəti tamamilə dəyişmişdir. Bununla yanaşı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli regionda vəziyyəti dəyişdirmişdir. Hazırda regionda tamamilə yeni vəziyyət mövcuddur. Azərbaycan 30 ilə yaxın davam edən münaqişəni həll etdi, buna güc yolu və siyasi vasitələrlə nail oldu. Mən həmsədr dövlətlərin başçılarından olan Prezident Putinin dedikləri ilə razılaşıram ki, Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşub. Mən də həmin fikirdəyəm. Təəssüflər olsun ki, Minsk qrupu münaqişənin həllində heç bir rol oynamayıb. Halbuki bunu etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi. Mən son 17 il ərzində danışıqlarda iştirak etmişdim. Lakin müharibə zamanı dediyim kimi, Minsk qrupunun ideyalarla çıxış etmək və yaradıcı olmaq istiqamətində müəyyən fəaliyyəti olsa da, bunlar heç bir nəticə verməmişdir. Reallıq bundan ibarətdir.

Beləliklə, Azərbaycan bu məsələni özü həll etmişdir. Biz Ermənistanı döyüş meydanında məğlub edərək, işğalçını məğlubiyyətini etiraf etməyə və Ermənistanın kapitulyasiyası hesab etdiyimiz Bəyanatı imzalamağa məcbur etdik. Ermənistan iqtidarından başqa ölkənin bütün siyasi qüvvələri də bununla razıdır ki, bu, kapitulyasiyadır və onlar bunu alçaldıcı kapitulyasiya adlandırırlar. Bunun tam məsuliyyəti Paşinyanın diktatura rejiminin üzərinə düşür.

Artıq qeyd etdiyim kimi, mən Prezident olaraq bu danışıqlarda 17 il ərzində iştirak etmişdim. Mənim Ermənistanın əvvəlki prezidentləri ilə də danışıqlar aparmaq təcrübəm olmuşdur. Burada hər hansı bir nəticə əldə olunmasa da, proses baş verirdi. Paşinyan prosesi məhv etmişdir. O, danışıqlar prosesinin formatını alt-üst etməyə cəhd etmişdir və onun təxribatçı hərəkətləri və bəyanatları danışıqları tamamilə mənasız etmişdir. Mən dəfələrlə onun hərəkətlərinə və söylədiklərinə istinad etmişəm. Bu, tamamilə qəbuledilməz idi. Onun Azərbaycan dövlətinə və xalqına qarşı təxribatçı və təhqiredici əməllərinə, bəyanatlarına cavab verilməli idi və biz onu ciddi şəkildə cəzalandırdıq. Beləliklə, o, öz məğlubiyyətini etiraf etməyə, atəşkəs üçün yalvarmağa məcbur oldu. Əslində o, bunu 44 günlük müharibə əsnasında hər gün edirdi və gündə bir neçə dəfə dünya liderlərinə zəng edirdi. Onun zəng etmədiyi avropalı lider tapmaq çətin olar. O, atəşkəsin təmin edilməsini xahiş edirdi. Lakin o, mənim şərtlərimə əməl etmək istəmirdi. Halbuki mənim yeganə şərtim var idi. O, isə bir neçə ay öncə mənə 7 şərt irəli sürmüşdü. Mən onları rədd etdim və dedim ki, mənim yeganə şərtim var - torpaqlarımızdan çıx! Əks təqdirdə, Azərbaycanın dəmir yumruğunu görəcəksən. Müharibə zamanı mən bir neçə dəfə bunu bəyan etmişdim. Onun hansısa naziri deyil, şəxsən Paşinyan bizə torpaqlarımızdan çıxmaqla bağlı tarix verən kimi biz dayanacağıq. Nəticədə bu, baş verdi və mən hər zaman olduğu kimi, verdiyim sözə əməl etdim. Paşinyan isə nə mənim, nə də öz xalqının qarşısında heç vaxt vədlərinə sadiq olmadı. O, yalançıdır və hesab edirəm ki, erməni xalqı artıq bunu anlayıb. O, indi də yalan danışmağa davam edir. Ancaq bunun artıq Azərbaycanla heç bir əlaqəsi yoxdur. Bu, artıq Ermənistanın daxili siyasətinə aiddir. Noyabrın 9-dan 10-na keçən gecə o, Bəyanatı imzaladığı andan biz dərhal dayandıq. Növbəti saatda biz dayandıq. Biz, həmçinin qoşunların çıxarılmasına da vaxt verdik. Bundan əlavə, Rusiya Prezidentinin müraciəti əsasında biz onlara Kəlbəcərin boşaldılması üçün əlavə 10 gün vaxt verdik. Halbuki erməni quldurları və Ermənistan qoşunları Kəlbəcərdə etnik təmizləmə apararkən azərbaycanlılara heç bir gün də vaxt verməmiş və onları qətlə yetirmişdilər. Azərbaycanlılar oradan qovulmuş, aprel ayının əvvəli, havanın çox soyuq olduğu vaxtda 3500 metr yüksəklikdə olan dağlardan keçməyə məcbur edilmişlər. Onların bir çoxu oradaca donmuşdu. Biz isə onlara əlavə vaxt verdikdə onlar nə etdilər? Onlar özlərinin tikmədiyi evləri yandırmağa başladılar. Onlar hər şeyi dağıtmağa başladılar. Mənə bir neçə gün öncə verilən məlumata görə, onlar orada bütün su elektrik stansiyalarını dağıtmışlar. Onlar bizim meşələri yandırmış və ağaclarımızı kəsmişlər. Özlərini vəhşi kimi aparmışlar - bu cür davranışlara başqa ad vermək olmaz. Ancaq biz sözümüzü tutduq. Biz müharibəni dayandırdıq. Hər kəsə bəllidir ki, bunu etməsəydik nə baş verəcəkdi. Ermənistan ordusu darmadağın edilmiş, ruhdan düşmüşdü və artıq nə isə etmək üçün heç bir imkana malik deyildi. Biz isə döyüş meydanında cəsarət, ruh yüksəkliyi və peşəkarlıq nümayiş etdirərək ermənilərin onilliklər ərzində ordularının məğlubedilməzliyi haqqında yaratdıqları mifi darmadağın etdik. Biz Azərbaycan Ordusunun məğlubedilməz olduğunu nümayiş etdirdik. Biz işğal edilmiş ərazilərin böyük hissəsini, 300-dən artıq şəhər, qəsəbə və kəndi, o cümlədən Azərbaycanın tarixi Şuşa şəhərini 44 gün ərzində işğaldan azad etdik. Biz kimin kim olduğunu göstərdik. Mən işğaldan azad olunan ərazilərə səfərim zamanı o torpaqlarımızı nə vəziyyətə saldıqlarının şahidi oldum. Bu haqda məlumatım var idi və internetdə bununla bağlı materiallarla da tanış idim. Füzulidə bir dənə də olsun salamat bina yox idi, hər şey yerlə-yeksan edilmişdir. Bir dənə də bina tapılmadı ki, orada bayrağımızı qaldıraq. Ağdamda isə tamamilə dağıdılmamış yeganə tikili məscidin binasıdır. Araşdırdıqda məlum oldu ki, onlar Ağdamda məscid binasını məsafə ölçmək üçün saxlayıblarmış. Azərbaycan Ordusu hücuma keçdiyi təqdirdə onlar bu vasitə ilə məsafəni ölçməli idilər, yəni, məscid istinad nöqtəsi kimi istifadə edilirdi. Lakin biz Ağdamdan əks-hücuma keçmədik və onların gözləmədikləri istiqamətdən irəlilədik. Biz Ağdama bir güllə atmadan gəldik. Bunları danışmağıma səbəb bunun, ilk növbədə, həqiqət olmasıdır. Bundan əlavə, siz bir ildən artıq müddətdən sonra buraya səfərə gəlmisiniz. Mən Azərbaycan xalqı ilə açıq və səmimi olduğum kimi, sizinlə də eyni dərəcədə açıq və səmimi danışmaq istəyirəm. Bütün bu 44 gün ərzində mən xalqa yalnız həqiqəti söyləyirdim. Paşinyan isə həm xalqına, həm də gündə bir neçə dəfə zəng etdiyi tərəfdaşlarına yalan danışırdı. O, bu gün də yalan danışmağa davam edir. Ancaq dediyim kimi, artıq bu məsələ narahatlıq doğurmur. Biz məsələni həll etdik. Biz ərazimizi işğaldan azad etdik. Müharibə zamanı mənə Azərbaycan Ordusunun itkiləri barədə çoxsaylı suallar verilirdi. Mən demişdim ki, biz bu məlumatı müharibə bitdikdə açıqlayacağıq. Belə də oldu, bizim qəhrəmanlarımızın - şəhidlərimizin fotoşəkilləri və onların adları televiziya vasitəsilə nümayiş etdirilir. Müharibə zamanı mən Ermənistan ərazisini işğal etmək niyyətində olmadığımızı bəyan etmişdim. Halbuki sizin də təsəvvür etdiyiniz kimi, bunun üçün bütün imkanlarımız var idi və həmin imkanlar bu gün də mövcuddur. Lakin bizim belə bir niyyətimiz yoxdur. Mənə bununla bağlı sual veriləndə dedim, xeyr, biz öz ərazimizi işğaldan azad etmək istəyirik və öz torpağımızda döyüşəcəyik. Biz sözümüzə sadiq olduq.

Eyni zamanda, bildirmişdim ki, bizim üçün Naxçıvanla quru əlaqəsinin yaradılması həyati əhəmiyyət kəsb edir. Biz buna siyasi yollarla nail olduq və Paşinyan bunu Bəyanat vasitəsilə imzaladı. Bununla da Naxçıvanın Azərbaycanın digər hissəsi ilə əlaqəsi təmin ediləcək. Bunun özü də Azərbaycan üçün vacib tarixi nailiyyətdir. Eyni zamanda, bu, regionun gələcəkdəki fəaliyyəti ilə bağlı müzakirələr üçün yeni imkanlar yaradır.

Müharibə zamanı beynəlxalq mediaya verdiyim çoxsaylı müsahibələrimdə mən bildirmişdim ki, bizim erməni xalqı ilə problemimiz yoxdur. Bizim davamız işğalçılarladır, ərazimizi işğal edən cinayətkarlarladır. Ermənilər isə hazırda ölkəmizin müxtəlif bölgələrində yaşadığı kimi, təhlükəsizlik və ləyaqət şəraitində yaşaya bilərlər. Onların güzəranları da bizim idarəçiliyimiz altında yaxşı olacaq. Biz müharibədən sonra ermənilərin əvvəl yaşadıqları kəndlərin vəziyyətini görürük. Orada səfalət hökm sürüb. İnsanlar oralarda inanılmaz şəraitdə yaşayıblar. Bəs bu işğalın məqsədi nə idi? Nə üçün ermənilər öz xalqının nümayəndələrini uzun illər ərzində orada qul kimi saxlayırdılar? Bilmirəm, görmüsünüz yoxsa yox, müharibənin ilk günlərində Azərbaycan Ordusu Ermənistan ordusunun səngərlərinə daxil olanda, orada məhv edilmiş işğalçıların bəzilərinin bir-birinə zəncirləndiyinin şahidi olduq. Bu, şokedici videolar idi. Yəni, onlar insanları səngərdə durmağa məcbur edirdilər. Qaçmaq, mövqelərini tərk etmək istəyənlərin qarşısı belə alınırdı. Müharibə zamanı onların xüsusi qrupları var idi ki, onlar Ermənistan qoşunlarının arxasında dayanaraq qaçmağa cəhd edən öz millətinin nümayəndələrini qətlə yetirirdilər. Belə hadisələr çox baş vermişdir. Onlar müharibə caniləridirlər. Gəncəni ballistik raketlə atəşə tutmaları, Bərdə və Tərtər şəhərlərinin kasetli və fosforlu sursatla atəşə məruz qalması, işğal edilmiş ərazilərdə qanunsuz məskunlaşdırma - bunların hamısı hərbi cinayətlərdir və onlar bunun fəxr edirdilər. Sarkisyan və Köçəryan hərbi cinayətkardırlar. Dağıdılmış Ağdam məscidi qarşısında çıxışımda dediyim kimi, biz Sarkisyan və Köçəryanı məğlub etdik. Onlar məsuliyyəti Paşinyanın üzərinə atmaq istəyirlər. Ancaq mən demişəm ki, Paşinyan heç kimdir.

*Ardı Səh. 4*

# "Erməni dövlətini məhv etdik və ərazimizdə cinayət rejiminə son qoyduq"

## *Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrlərini qəbul edib*

Əvvəli Səh. 3

O, Sarkisyan və Köçəryan rejiminə qarşı etiraz dalğası üzərində hakimiyyətə gəlmiş təsadüfi insandır. Bu adamın heç bir bilik və təcrübəsi yoxdur. Onun beynəlxalq münasibətlər və ölkənin idarəçiliyi haqqında təsəvvürü yoxdur. Həyatında kiçik bir kolxoza belə rəhbərlik etməyən insandır. Yəni, təkcə onu günahlandırmaq olmaz. Düzdür, o, bizi təhrik etdi, qəbuledilməz hərəkətlər etdi və buna görə cəzalandırıldı. Lakin biz, Sarkisyan və Köçəryan ordusunu məğlub etdik. Bu ordunu 30 il ərzində yaradanlar onlar idi. Beləliklə, bu hərbi cinayətlər hazırda sənədləşdirilir. Biz artıq şəhərlərimizə qarşı törədilən əməllərlə bağlı hüquqi prosedurlara başlamışıq. Biz beynəlxalq tərəfdaşlarımızı dəvət etmişik ki, mülki əhalimiz, infrastrukturumuz, dini və mədəni abidələrimizə dəymiş ziyanın müvafiq təhlili aparılsın. Hər bir şey sənədləşdiriləcək və biz bu cür şəraitə uyğun olaraq zəruri addımlarımızı atacağıq. Qanunsuz məskunlaşdırma hərbi cinayətdir. Minsk qrupu işğal edilmiş ərazilərə rəsmi olaraq iki dəfə missiyalar təşkil etmişdir - birində bu, faktaraşdırıcı missiya adlandırılmış, digər vaxtda isə bunun adı vəziyyətin yerində qiymətləndirilməsi missiyası idi. Anji Kaspşik bunu yaxşı bilir. O, bu prosesin veteranlarından olub. O da oralarda olub.

Eyni zamanda, Minsk qrupunun həmsədrləri işğal olunmuş ərazilərə dəfələrlə səfər etmişlər və Ermənistan rejiminin hərbi cinayətlərinin şahidi olmuşlar. Şəhərlərimizin tam dağıdılmasının şahidi olmuşlar. Söhbət yalnız Ağdam və Füzulidən getmir, Cəbrayıl da eyni vəziyyətdədir. Kəlbəcər və Laçında onlar bəzi evlərdən yalnız məskunlaşmaq üçün istifadə edirdilər. Qubadlı ilə Zəngilanda onlar suriyalı erməniləri yerləşdirməyi planlaşdırırdılar və onlardan muzdlular kimi istifadə edirdilər. Əlimizdə ermənilərin istifadə etdiyi muzdlular barədə saysız-hesabsız faktlar var. Mən artıq dedim ki, oranın sakinləri əslində kimlərdir və bunu təkrar etmək istəmirəm. Lakin əlimizdə pasportlar var. Həbsxanalarımızda əcnəbilər var. Bir sözlə, bütün bunlar böyük sual doğurur. BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in qərarlarına, digər beynəlxalq təşkilatların qərarlarına baxmayaraq, bu qədər illər ərzində münaqişə niyə həll olunmurdu? BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü öz imkanlarından, potensialından istifadə edə bilmədi ki, ermənilər çıxmağa məcbur olsun. Hətta bəzi ərazilərdən çıxara bilmədi. Onlar bacarmadı, yoxsa istəmədi? Bu, açıq sual olaraq qalır. Lakin hazırda bu, artıq fərq etmir. Münaqişə həll olunub. Azərbaycan bunu hərbi-siyasi vasitələrlə etdi. Tez-tez sizdən və rəhbərlərinizdən, eləcə də yüksək rütbəli rəsmilərinizdən eşidirdim ki, münaqişənin hərbi həlli yoxdur. Mən isə deyirdim: Var! Tarix göstərdi ki, mən haqlı idim. Var idi! Fikrimcə, "hərbi variant yoxdur" deyənlərin indi özləri anlayır ki, var idi, çünki onlar, sadəcə, mövcud vəziyyəti olduğu kimi saxlamaq istəyirdilər.

Minsk qrupunun həmsədri olan ölkələrin prezidentlərinin bəyanatları olub. Məncə, bu, təxminən on il əvvəl baş verib. Biz həmin bəyanata dəstək verdik, çünki o, müəyyən ümidlər yaratdı. Onlar birgə bəyannamə ilə çıxış etdilər və bildirdilər ki, status-kvo qəbuledilməzdir. Biz dedik: "Bəli. Yaxşı bəyanatdır. Gəlin onun üzərində işləyək". İndi isə bunu Ermənistana deyin. Mən sizə və sələflərinizə nə qədər deyirdim ki, gedin, deyin ermənilərə çıxsınlar. Onlara təzyiq göstərin. Mən ölkələrinizin yüksək rütbəli rəsmilərinə bunu dəfələrlə deyirdim: "Gedin, deyin onlara, təzyiq göstərin, hələ ki, gec deyil!" Lakin nə baş verdi? Müəyyən vaxt keçdi, ölkələrinizin liderləri bu sözləri dəyişməyə başladılar. Onlar artıq status-kvonun qəbuledilməzliyi barədə danışmadılar. Onlar dedilər ki, status-kvo dayanıqlı deyil. Bu, o deməkdir ki, status-kvo onlar üçün qəbul ediləndir. Bunu hansı başqa formada izah edə bilərik. Onlar Akvildə, Muskokada söylədilər ki, status-kvo qəbuledilməzdir. Sonra da onlar dedilər ki, status-kvo dayanıqlı deyil. Bu, o deməkdir ki, status-kvo artıq qəbul edilir. Bir çox siyasətçilər hesab edirdilər ki, sülhün qorunması üçün yeganə yol status-kvonun qalmasından keçir. Biz isə bunu dəyişdik. Biz göstərdik ki, status-kvo güc yolu ilə, şücaət, müdriklik, siyasət, səylərin səfərbər olunması, Azərbaycan xalqının həmrəyliyi, Azərbaycan hökumətinin iradəsi, Azərbaycan xalqının əzmkarlığı, Azərbaycan əsgərinin müzəffərliyi sayəsində dəyişdirilə bilər. Haqlı olduğumuzu göstərdik.

Sonradan isə əlbəttə, Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur edildi. Onlar bunu heç vaxt könüllü imzalamazdılar. Biz onları məcbur etdik, Minsk qrupu yox! Biz və Prezident Putin. Bu, reallıqdır. Prezident Putinin müdaxiləsi və səyləri olmasaydı, bu gün, ehtimal ki, vəziyyət başqa cür olardı.

Lakin biz planlaşdırdığımıza nail olduq. Biz işğal olunmuş bütün yeddi rayonumuzu qaytardıq. Biz qədim Azərbaycan şəhəri Şuşanı qaytardıq. Biz Hadrut qəsəbəsini qaytardıq. Xocavəndin bir hissəsini qaytardıq. Suqovuşanı və digərlərini qaytardıq. Əslində, planlaşdırdığımıza nail olduq.

Hazırda isə Rusiya sülhməramlıları oradadırlar, öz fəaliyyətinə başlayıblar. Vəziyyət müəyyən dərəcədə sabitdir. Baxmayaraq, indi mənə məlumat verilib ki, dünən ya erməni yaraqlıları, yaxud "Ermənistan ordusu" adlandırdıqları qalıqlar tərəfindən bəzi terror aktları törədilib. Bu, əlbəttə ki, narahatlıq doğurur. Mənə elə gəlir ki, Ermənistan yenidən başlamağa heç bir vəchlə cəhd etməməlidir. İki gün öncə şanlı Qələbəmizə həsr olunmuş hərbi paradda mən söylədim ki, əgər Ermənistan faşizmi yenidən baş qaldırarsa, biz onun başını dəmir yumruqla əzəcəyik. Buna görə onlar çox diqqətli olmalıdır ki, hər hansı hərbi əməlləri planlaşdırmasınlar. Bu dəfə biz onları tamamilə darmadağın edəcəyik. Bu, heç kəs üçün sirr qalmalı deyil. Lakin ümid edirəm ki, bu, baş verməyəcək. Bir sözlə, sülhməramlıların missiyası qüvvədədir. Bilirsiniz ki, sülhyaratma əməliyyatları müzakirə olunmuş razılaşmanın, Madrid prinsiplərinin bir hissəsidir. Lakin biz bunu heç zaman ciddi müzakirə etməmişik. Anji bir veteran kimi bunu bilir. Biz həmin mövzuya hətta heç vaxt toxunmamışıq.

Biz, sadəcə, ümumi şəkildə fikir mübadiləsi etmişik. Sülhməramlıların tərkibi necə olar bilər? Onlar hansı ölkələri təmsil edə bilər? Onlar qonşu, yaxud həmsədr ölkələr olmalıdır? Fikirlər müxtəlif idi. Şəxsən mən bu haqda heç zaman fikir söyləməmişəm, çünki deyirdim, bu, hələ tezdir. Biz əvvəlcə münaqişəni həll etməliyik. Biz heç zaman sülhməramlılara etiraz da etməmişik. Biz dedik, bəli, sülhməramlılar gəlsinlər və müəyyən vaxtda mülki şəxsləri, erməniləri və azərbaycanlıları qorusunlar. Bu, elə baş verir. Hazırda sülhməramlı əməliyyatlar Rusiya tərəfindən aparılır. Ermənistan və Azərbaycan da bunu dəstəkləyib.

Eyni zamanda, bildiyiniz kimi, biz artıq Azərbaycanın Ağdam rayonunda Monitorinq Mərkəzinin yaradılması mərhələsindəyik. Bu məsələ noyabrın 10-da imzaladığımız Bəyanatda əks olunub. Türkiyə-Rusiya Monitorinq Mərkəzi atəşkəs rejiminə nəzarət edəcək. Fikrimcə, bu, regional əməkdaşlığın çox yaxşı təzahürüdür. Həmçinin Türkiyə ilə Rusiya arasında çox məqbul əməkdaşlığın rəmzidir. Bu, artıq reallıqdır.

Eyni zamanda, qaldırmaq istədiyim sonuncu məsələ, - əminəm ki, siz bu haqda eşitmişiniz, - bizim gələcəklə bağlı fikrimizdir. Yəni, regionun gələcəyi ilə bağlı demək istəyirəm. Mən artıq bir neçə dəfə ictimaiyyət qarşısında bu məsələni qaldırmışam ki, regiona yeni canlanma gətirilməlidir. Regionda yeni inkişaf olmalıdır. Azərbaycan buna hazırdır. Azərbaycan iqtisadi və hərbi baxımdan güclüdür. Ölkəmiz çox geniş beynəlxalq dəstəyə malikdir. Ölkəmiz bu gün BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilata - Qoşulmama Hərəkatına sədrlik edir. Əlbəttə, biz bunu işimizin bir hissəsi kimi icra edəcəyik ki, uzunmüddətli sabitlik və təhlükəsizlik təmin olunsun.

Lakin, əlbəttə ki, bu, həmçinin Paşinyan rejimindən, yaxud da həmin rejimi devirəcək dairələrdən asılı olacaq. Hesab edirəm ki, beynəlxalq ictimaiyyət Ermənistana birbaşa mesaj verməlidir. Birincisi, gələcəkdə heç zaman Azərbaycan xalqının hissləri ilə oynamasın, yoxsa ağır cəzadan yaxa qurtara bilməyəcəksiniz! Biz səbirliyik. Biz hazırlaşırdıq. Biz bütün işləri lazımınca apardıq. İyulda ilk erməni təxribatına cavab vermədik, yəni dövlət sərhədini keçmədik, halbuki, bunu edə bilərdik. Biz avqustdakı ikinci erməni təxribatına səbirlə yanaşdıq. O vaxt onlar insanlarımızı qətlə yetirmək üçün diversiya dəstəsi göndərdilər. Lakin üçüncü dəfə, sentyabrda biz cavab tədbirlərinə keçdik. Elə cavab verdik ki, onların Ermənistan ordusunu və demək olar ki, erməni dövlətini məhv etdik və ərazimizdə cinayət rejiminə son qoyduq, erməni millətçilərinin üzdəniraq "artsax" xülyalarını dağıtdıq. O, mövcud deyil. Paşinyan deyirdi ki, "Qarabağ Ermənistandır". O, səhv etdi və layiqli cəzasını aldı. O, bu alçaltmaya layiqdir. Xalqımız, ölkəmiz qələbə qazandı, çünki həqiqət və beynəlxalq hüquq bizim tərəfimizdə idi.

Bununla, mən sözlərimi yekunlaşdırıram ki, sizi dinləyim, çünki buraya gəlmək sizin ideyanız idi. Bunu bir daha kameralar qarşısında deyə bilərəm. Mən Minsk qrupunu səfərə dəvət etməmişəm. Lakin mənə məlumat verəndə ki, Minsk qrupu gəlmək istəyir, dedim gəlsinlər, etiraz etmirəm. Bəlkə onların mənə sözləri var. Əgər siz bunu kamera qarşısında söyləmək istəyirsinizsə, buyurun. Əgər istəmirsinizsə, mən onlara deyim getsinlər. Necə istəsəniz. Buyurun, sizi dinləyirəm.

*ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskonti:*

-Cənab Prezident, biz Sizi diqqətlə dinlədik. Əvvəlcə, bu gün, xüsusi gündür, dekabr ayıdır. Atanızla görüşməyim xatirimə gəlir. Parisdə, Prezident Şirakla görüş zamanı orada idim və mən o vaxt aparılan danışıqlarda iştirak edirdim. Biz Sizi anlayırıq. Siz də indicə qeyd etdiniz ki, həmsədr ölkələr son 28 il ərzində bacardıqları qədər öz mandatını icra etməyə çalışmışlar. Bu mandat əsasında iki tərəf arasında məsələnin nizamlanmasına şərait yaratmalı idilər. Mən Sizin tərəfdən verilən maraqlı təklifləri yüksək dəyərləndirirəm. Biz bunun üzərində çalışacağıq və tərəflərin iradəsinə uyğun olan variantı tapmağa vasitəçi olaraq çalışacağıq. Mənim hökumətim qırğına son qoyan atəşkəsi alqışlayıb. Biz noyabrın 9-dan 10-na keçən gecə əldə olunmuş razılaşmanın bütün müddəalarına çox müsbət yanaşırıq. Hadisələrin cərəyan etməsinin yeni gündəliyini qavrayırıq. Siz də qeyd etdiniz ki, regiona qərəzsiz və kollektiv qaydada sabitliyin, rifahın gətirilməsi üçün tamamilə yeni bir vəziyyət yaranıb. Bütün qalan məsələlər üzərində Minsk qrupunun işləməsinə gəldikdə, bu, tam Sizdən asılı olacaqdır. Bəli, bunun üçün yaxşı zəmin var. Biz keçid mərhələsindəyik və gələcək planlar tərtib oluna bilər. Mən, əlbəttə ki, sizin indi açıq şəkildə söylədiyiniz fikirləri öz hökumətimə məruzə edəcəyəm. Əlbəttə ki, Bakıda olmağımız, belə başa düşürəm ki, dəvət əsasında olub. Dəvət olmasaydı, mən gəlməzdim. Ola bilsin, bu missiyanın təşkilində, yazışmada qeyri-aydınlıq olub. Lakin mən bizi bu görüşdə qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Mən sözlərinizi lazımi qaydada Prezidentimə və hökumətimizə çatdıracağam. Sağ olun.

*ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Endrü Şofer:*

-Bu gün bizi burada qəbul etdiyinizə və səmimi qonaqpərvərliyinizə görə təşəkkürümü bildirmək istəyirəm. Həmçinin mövqeyinizi çox aydın ifadə etdiyinizə görə minnətdarıq. Həmkarımın söylədiyi kimi, biz bunu öz hökumətlərimizə məruzə edəcəyik. Sizin söylədiyiniz sözlərə və açıq verdiyiniz bəyanata gəldikdə, anlayırıq ki, hazırda yeni vəziyyət yaranıb. Hamımız anlayırıq və etiraf edirik ki, indi qarşımızda yeni reallıqdır. Hesab edirəm ki, Sizinlə söhbət aparmağımın əsas səbəbi Sizin mövqeyinizi daha yaxşı anlamaq idi. Siz həmin mövqeyi açıqladınız və bir azdan biz hadisələrin sonra necə cərəyan edəcəyi ilə bağlı təfərrüatları müzakirə edəcəyik. Hazırda cari vəziyyət fərqlidir. Bilmək istərdim, Siz gələcəyi, ümumiyyətlə, necə görürsünüz? Xüsusən də Madrid prinsiplərində deyilir ki, xətlər və kommunikasiyalar açılsın, münasibətlər yenidən qurulsun, regionda bütün xalqlar üçün müsbət mühit yaradılsın. Əgər, bunlar sizin mövqeyinizin bir hissəsidirsə, onda, fikrimcə, buna nail olunmasında bizim və ölkələrimizin oynayacağı rol ola bilər. Biz bunu Sizdən eşitmək istərdik, gələcəkdə hansı addımları atmaq istəyirsiniz? Bildiyiniz kimi, bundan sonra, biz İrəvana gedəcəyik və digər tərəflə də eyni söhbət aparacağıq. Bizim daha təfərrüatlı müzakirələrimiz olacaq. Sağ olun.

*Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov:*

-İcazənizlə, cənab Prezident. Minsk qrupu həmsədrlərinin Sizinlə görüşmək fürsətinə görə çox minnətdaram. Bildiyimiz kimi, Rusiya əldə edilmiş üçtərəfli razılaşmanın iştirakçısıdır, həmin Bəyanatın müddəalarının icrasına xüsusi önəm verir. Fikrimcə, bu sənədin tam icrası üçün hələ də görüləcək işlər var. Onlar Siz söylədiyiniz kimi, cənab Prezident, insanların, yəni məcburi köçkünlərin öz yerlərinə qayıtmasına, bölgənin dinc yolla yenidən qurulmasına aiddir. Əlbəttə ki, o, Sizin də təsvir etdiyiniz kimi, bölgənin sülh şəraitində dinc yolla və uğurlu şəkildə inkişafına aiddir. Minsk qrupuna gəldikdə, hökumətimiz hər zaman bu qrupun vacibliyini qeyd edib. Bu səbəbdən, biz iştirak etmişik və bu gün də qrupda iştirak edirik. Hesab edirəm ki, qrupun birgə mövqeyi bu yaxınlarda Minsk qrupu həmsədr ölkələrinin nümayəndə heyətlərinin rəhbərləri tərəfindən 3 dekabr tarixli bəyanatında ifadə olunmuşdur. Bu sənəddə ümumi münasibət bildirilir və biz istənilən sahədə, eləcə də, cənab Prezident, bu gün söylədiyiniz kimi, yenidənqurma işlərinin icrasında bacara biləcəyimiz yardımdan çox məmnun olardıq. Sağ olun.

# Azərbaycanlı əsirlər və erməni girovluğunda saxlanılan Şahbaz Quliyev və Dilqəm Əsgərov Vətənə gətiriliblər



Rusiya Federasiyasının Prezidenti, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikası baş nazirinin imzaladıqları 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan, beynəlxalq humanitar hüquq normalarından irəli gələn öhdəliklərinə və humanizm prinsiplərinə sadiq qalan Azərbaycan tərəfi müharibə vaxtı əsir götürülmüş erməni hərbçilərinin hüquqlarının təmin edilməsi istiqamətində üzərinə düşən vəzifələri ardıcıl olaraq yerinə yetirib. Əsir düşmüş ermənilər barədə məlumatlar müntəzəm Beynəlxalq Qızıl Xaç Komitəsi və Rusiya Sülhməramlı Qüvvələrinə təqdim olunub, birtərəfli qaydada onların bir hissəsi azad edilib. Azərbaycanda olduqları müddətdə həmin əsirlərə zəruri tibbi xidmət və ləyaqətli davranış göstərilib, onlara ailələri ilə əlaqə saxlamaq imkanı yaradılmış və digər hüquqları təmin olunub.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından AZƏRTAC-a bildiriblər ki, müxtəlif səbəblərdən döyüşlər zamanı əsir düşmüş və ya girov götürülmüş Azərbaycan vətəndaşlarının vətənə qaytarılması məsələlərini daim diqqət mərkəzində saxlayaraq Beynəlxalq Qızıl Xaç Komitəsi, Rusiya Sülhməramlı Qüvvələri və digər beynəlxalq təşkilatlarla tərəfimizdən fasiləsiz olaraq danışıqlar aparılmış və bütün mümkün başqa tədbirlər həyata keçirilib.

Beynəlxalq təşkilatların və Rusiya Sülhməramlı Qüvvələri komandanlığının iştirakı ilə aparılmış danışıqlar nəticəsində erməni tərəfi ilə əsir və girovların "hamının hamıya" prinsipi əsasında dəyişdirilməsi barədə razılıq əldə olunub və cari il dekabrın 14-də əsir və girovların qarşılıqlı qaytarılmasına başlanıb. Günorta saatlarında Azərbaycan vətəndaşları olan əsir və girovların, o cümlədən 2014-cü ilin iyulundan erməni girovluğunda saxlanılan Şahbaz Quliyev və Dilqəm Əsgərovun təyyarə ilə Bakıya gətirilməsi təmin edilib. Müvafiq karantin tədbirləri həyata keçirildikdən sonra azad olunmuş şəxslər ailələrinə qovuşacaqlar.

Azərbaycan tərəfi bundan sonra da humanizm prinsiplərini rəhbər tutaraq əsirlərin, girovların və meyitlərin dəyişdirilməsi üçün üzərinə götürdüyü öhdəlikləri yerinə yetirəcək.

# Yeni Azərbaycan Partiyası "YAŞAT" Fonduna 100 min manat vəsait köçürüb

Yeni Azərbaycan Partiyası (YAP) işğal altında olan torpaqlarımızın azad edilməsi və Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə Prezident İlham Əliyevin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə yaradılmış "YAŞAT" Fonduna 100 min manat məbləğində vəsait ödənilməsi barədə qərar qəbul edib.

YAP-ın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, partiya şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində təşəbbüslərin reallaşdırılması kimi xeyirxah və nəcib məqsədlərlə yaradılmış Fondun dəstəklənməsini hər kəsin mənəvi borcu hesab edərək, partiyanın bütün yerli strukturlarına və üzvlərinə bu Fonda dəstək göstərilməsini tövsiyə edib.

# Sergey Markov: Rusiya sülhməramlılarının legitimliyi zərbə altında qala bilər



"Neytrallıq prinsipinin pozulması Rusiya sülhməramlılarının Qarabağdakı fəaliyyətinin legitimliyini zərbə altına qoya bilər". SİA xəbər verir ki, bunu açıqlamasında rusiyalı politoloq Sergey Markov deyib.

Politoloqun sözlərinə görə, bir sıra Rusiya sülhməramlısı ənənəvi olaraq Ermənistanla, mümkündür ki, Ermənistanın Müdafiə Nazirliyi ilə, Dağlıq Qarabağ ərazisindəki erməni silahlı birləşmələri ilə təmasdadırlar: "Ola bilsin ki, Rusiya sülhməramlıları daha çox erməni tərəfinin səsinə qulaq asırlar. Ona görə ki, Rusiya sülhməramlıları daha çox onlarla təmasdadırlar. Düşünürəm ki, Azərbaycan ictimaiyyətinin haqlı qəzəbinin, narahatlığının ciddi əsasları var və bu qəzəb Rusiya tərəfindən heç bir halda diqqətdən kənarda qalmamalıdır, qalmayacaq da...".

*Aysel Məmmədova*

# Peskov: "Kreml Dağlıq Qarabağdakı vəziyyəti izləyir"



*Kreml Dağlıq Qarabağdakı vəziyyəti izləyir. SİA-nın Rusiya mənbələrinə istinadən verdiyi məlumata görə, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Dağlıq Qarabağda atəşkəs rejiminin pozulmasını şərh edərkən deyib.*

*Kreml sözçüsü bildirib ki, regiondakı bu hadisələr sülhməramlılar üçün yükdür: "Çox sürətli təmaslar həyata keçirildi. Həqiqətən, həyəcanverici bir vəziyyət var idi, amma operativ şəkildə dayandırıldı".*

# Siyasətdə sağlam münasibətlərin təşviqi ilə bağlı iqtidarın təşəbbüsləri davam edir



Azərbaycan ictimaiyyəti xüsusilə son bir il ərzində iqtidarın ölkəmizdə siyasi dialoq mühitinin təşviqi ilə bağlı müxtəlif səpgili layihələrin şahididir. Siyasətdə sağlam münasibətlərin dəstəklənməsi məsələsi ölkəmizdə vətəndaş cəmiyyətinin formalaşması istiqamətində atılan inamlı addımlardır. Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan islahatlar ölkədə yeni siyasi konfiqurasiyanın formalaşması ilə yanaşı, siyasətdə peşəkar və demokratik münasibətlərin bərqərar olunmasını da tələb edir. Hakimiyyətin müxalifət nümayəndələri ilə mütəmadi şəkildə təşkil olunan görüşləri Azərbaycanda siyasi dialoq mühitinin inkişafına yönəlmiş siyasət kimi dəyərləndirilməlidir.

AZƏRTAC xəbər verir ki, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin siyasi partiya rəhbərləri və ictimai fəallar ilə görüşləri davam edir. Açıq fikir mübadiləsi şəraitində keçirilmiş növbəti görüşlər Azərbaycan Ümid Partiyasının sədri İqbal Ağazadə, Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Fəttayev, Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu, ReAL Partiyasının sədri İlqar Məmmədov və Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev ilə ayrı-ayrılıqda videokonfrans formatında təşkil olunub.

Görüşlər zamanı bir çox məsələlərlə yanaşı, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış böyük qələbə və bu qələbəyə Azərbaycan xalqının verdiyi qiymət, xalq və ordu birliyi, qazilərə dövlət qayğısı və onların reabilitasiyası, Vətən müharibəsi kontekstində Azərbaycan və Türkiyə arasında qardaşlıq münasibətləri, işğaldan azad olunmuş ərazilərdə görüləcək işlər və əhalinin məskunlaşması, Azərbaycana qarşı intensiv şəkildə aparılan informasiya təzyiqləri fonunda milli və siyasi həmrəyliyin qorunmasının əhəmiyyəti və bu işdə siyasi partiyaların rolu müzakirə edilib. Həmçinin siyasi partiyalar haqqında yeni qanun layihəsi, Prezidentin dövlət quruculuğu məsələləri ilə bağlı təşəbbüsləri, vətəndaş cəmiyyəti institutlarının inkişafı üçün birgə reallaşdırıla biləcək layihələr, Azərbaycanda multikulturalizm ənənələri, ölkəmizdə yaşayan və yaşayacaq ermənilərə münasibət, eləcə də COVID-19 pandemiyası ilə mübarizədə maarifləndirmə işlərinin əhəmiyyəti və bir sıra digər önəmli mövzular ətrafında müzakirələr aparılıb.

Müasir tariximizin ən parlaq səhifələrindən olan Vətən müharibəsi ətrafında fikir mübadiləsi aparılaraq bildirilib ki, əldə edilən zəfərin əsas səbəbi Azərbaycan xalqının qələbəyə olan inamı idi. Azərbaycan xalqı və Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında bir yumruq kimi birləşərək xalqımızın yüzillik arzusunu gerçəkləşdirdi. Ordumuza cəmi 44 gün kifayət etdi ki, yüzilliklər boyu formalaşdırılmış erməni mifini darmadağın etsin. Döyüşlər nəticəsində ölkəmiz bütün dünyaya öz hərbi gücünü və iqtisadi qüdrətini açıq şəkildə nümayiş etdirdi.

Prezident Administrasiyasının rəsmisi siyasi partiyaların rəhbərləri ilə görüşlərində xalqın ordumuza göstərdiyi dəstəyi xüsusi vurğulayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin xalqa dekabrın 1-də etdiyi müraciətindən sitat gətirib: "Mən müharibənin ilk günündən bu günə qədər - sentyabrın 27-dən dekabrın 1-nə qədər Azərbaycan xalqına dəfələrlə müraciətlər etmişəm, xalqla sevincini bölüşmüşəm, azad edilmiş şəhərlərimizin müjdəsini vermişəm. Özümü çox xoşbəxt adam hesab edirəm. Çünki bu Qələbə bizim ruhumuzu, əyilməz ruhumuzu göstərdi". Cənab Prezidentin bu sözləri ölkədə yaşanan milli birlikdən xəbər verir. Əldə olunan Qələbə isə həmin birliyi əbədi edəcək.

Aparılmış söhbətlər zamanı milli və siyasi birliyin əhəmiyyətini vurğulayan Ə.Vəliyev bildirib ki, Azərbaycanın hər bir vətəndaşı mövcud həmrəyliyin qorunmasına öz töhfəsini verməlidir. Bu mənada müharibədən sonrakı dövrdə ölkəmizə qarşı mümkün informasiya təzyiqləri ilə mübarizədə qalib gəlmək üçün Azərbaycanda fəaliyyət göstərən bütün siyasi partiyalar həmrəylik nümayiş etdirərək öz potensialını səfərbər etməlidir.

Ölkənin siyasi fəalları ilə təşkil olunan görüşlər çərçivəsində son bir il ərzində görülmüş işlər haqqında məlumat verən Ə.Vəliyev qeyd edib ki, siyasi partiyalarla əməkdaşlıq fəaliyyətin əsas istiqamətlərindəndir. Məhz bu əməkdaşlığın genişlənməsi və şaxələnməsi nəticəsində siyasi proseslərin iştirakçıları arasında etibarlı münasibətlərin qurulması mümkün olub.

Müzakirələr zamanı İqbal Ağazadə, Mirmahmud Fəttayev, Sərdar Cəlaloğlu, İlqar Məmmədov və Hafiz Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlətimizin inkişafı və beynəlxalq nüfuzunun artmasına yönəlmiş siyasətinə daim dəstək göstərəcəklərini və konstruktiv əməkdaşlığa hazır olduqlarını bildiriblər.

Görüşlərdə iştirak edən siyasi partiyaların rəhbərləri "Zəfər Günü", "Anım Günü", həmçinin Vətən müharibəsində Qələbə ilə bağlı müvafiq orden və medalların təsis olunması, habelə Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması barədə Prezidentin qərarlarını yüksək qiymətləndirib və bu ali təşəbbüslərin bilavasitə milli birliyə xidmət etdiyini vurğulayıblar.

Görüşə görə təşəkkürlərini bildirən partiya rəhbərləri dövlətçiliyimizin, iqtidar-müxalifət arasında dialoqun və demokratik ənənələrin inkişafına xidmət edən bütün təşəbbüslərə hər zaman dəstək olacaqlarını söyləyiblər.

# QƏLƏBƏ PARADI:

# Xalq-İqtidar-Ordu birliyinin nümayişi

### Prezident İlham Əliyev: "Hamı bir nəfər kimi Ali Baş Komandanın və şücaətli Ordusunun arxasındadır! Qarabağ Azərbaycandır!"



***Bəli, bu gün məhz Azərbaycan Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyv cənablarının rəhbərliyi ilə rəşadətli Azərbaycan əsgəri döyüşlərdə qəhrəmancasına döyüşə-döyüşə bərkiyərək Güclü Ordumuzun gücü ilə Azərbaycan tarixinə qələbələr yazaraq Qələbə Paradını keçirir. Çünki bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və bu gün Azərbaycan öz ərazi bütövlüyünün bərpasına nail oldu. Bu qələbə Prezidentimizin diplomatik siyasətinin, Güclü Ordumuzun və rəşadətlit əsgərlərimizin şücaəti nəticəsində əldə olunanq Qələbədir! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!***

Lakin hələ də Erimənistanın faşist xislətli küçə "demokratı" Nikol Paşinyan bu günə kimi Azərbaycan Prezidenti İlham Əliyeev cənablarının bütün beynəlxalq görüşlərdə verdiyi ibrət dərsdən bir nəticə çıxara bilməyib. Və sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti bir daha Nikolun faşist mahiyyətini bütün dünyaya göstərir. Azərbaycan Prezidenti dəfələrlə vurğulayıb ki, "Qarabağ Azərbaycandır və nida işarəsi".

Ali Baş Komandanımız da bütün müsahibələrində, müraciətlərində, çıxışlarında deyib ki, bizim mübarizəmiz haqq mübarizəsidir və bu gün Azərbaycan vətəndaşları dövlətə tam dəstək göstərirlər, biz bu dəstəyi daim hiss edirik: "Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır və 30 ilə yaxın öz doğma torpaqlarına qayıda bilməyən soydaşlarımıza da üz tutub deyirəm ki, biz əlimizdən gələni edəcəyik ki, sizi öz doğma torpaqlarınıza qaytaraq".

### Gözün aydın Azərbaycanımız, gözün aydın xalqım mənim, gözün aydın bütün türk xalqım! Budur, Xalq-İqtidar-Ordu Birliyi!

Bəli, bu sevinc, bu qələbə güclü ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin uğurlu, proqmativ siyasətinin nəticəsidir. Çünki Güclü Ordu ilə Güclü Dövlət anlayışı vəhdət təşkil edir. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi, elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür. Və sentyabrın 27-dən başlayaraq bu günə kimi, Ermənistanın hərbi hissələrinin təmas xəttində Azərbaycanın işğal altında olan ərazilərində yerləşən Azərbaycan Silahlı Qüvvələrinin bütün cəbhəboyu mövqelərini iriçaplı silahlar, minaatanlar, qumbaraatan və artilleriya qurğularından intensiv atəşə tutaraq qoşunların təmas xəttində növbəti təxribatların uğurla qarşısının alınması, məhz müstəqil Azərbaycanın peşəkar hərbçi kadrlarının, güclü maddi-texniki bazaya, müasir texnika və silahlara malik olan nizami ordusunun olmasının nəticəsidir. Daha dəqiq desək, Azərbaycanın şanlı silahlı qüvvələrinin cəbhədə əldə etdiyi zəfərləridir. Əslində, bu gözlənilən idi. Çünki uzun müddət idi ki, işğalçı Ermənistan rəhbərliyi, bu rejimin Qarabağdakı yedəyi - "dqr"nın separatçıları zaman-zaman özlərinə güvənən bəyanatlarla çıxış edir, "qüdrətli və məğlubedilməz erməni ordusu"nun imicini reklam etməklə siyasətdəki yerlərini möhkəmləndirməyə çalışsalar da yenə də Azərbaycan ordusu onları zamanında yerlərinə oturtdu və dərslərini verdi.

Dövlət başçımız dəfələrlə çıxışlarında vurğulayıb ki, bizim hədəflərimiz erməni silahlı birləşmələrinin mövqeləri, texnikası, canlı qüvvəsidir: "Bizim hədəflərimiz erməni silahlı birləşmələrinin mövqeləri, texnikası, canlı qüvvəsidir. Amma onlar bizim kəndlərimizi, şəhərlərimizi atəşə tuturlar, 13 dinc insan həlak olub, 40-dan çox mülki şəxs yaralanıb, 168 ev dağıdılıb. Budur erməni faşizminin sifəti. Onlar döyüş meydanında bizim qarşımızda dura bilmirlər, kəndlərimizi, şəhərlərimizi vururlar. Amma orada yaşayan soydaşlarımızın hamısı yerindədir, hamısı "Vətən sağ olsun" deyirlər. Bir santimetr geri addım atmayıblar və əminəm ki, atmayacaqlar".






















### "Azərbaycan xalqı öz qəhrəman övladları ilə qürur duyur"

Azərbaycan Prezidenti onu da bildirib ki, dövlət həmişə sizin yanınızdadır: "Mən sizi təbrik etmək istəyirəm. Çünki siz gənc yaşlarınızda böyük qəhrəmanlıq, şücaət göstərib, Vətən uğrunda şərəflə vuruşub öz adlarınızı Azərbaycan tarixinə yazdırırsınız. Eyni zamanda, sizi belə vəziyyətdə görmək mənim üçün, hamımız üçün çox ağırdır. Amma əmin ola bilərsiniz ki, sizin sağlamlığınız üçün nə lazımsa, biz onu da edəcəyik. Bizim bütün xəstəxanalarda, hərbi hospitallarda hazırda müalicə alan hər bir insan xüsusi qayğıya layiqdir və bütün həkimlər, nəinki həkimlər, bizim bütün xalqımız sizə dəstək olmalıdır. Siz əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq".

Bax, budur xalq-iqtidar-ordu birliyi və bu birliyin təcəssümü qalibiyyətdir! Bu gün Azərbaycan Prezidentinin siyasəti qalib gəldi!. Çünki Azərbaycan haqq yolundadır və apardığı mübarizədə də qalib gələcək, tarixi ədaləti bərpa edəcək. Uğur olsun, Prezidentimiz, uğur olsun Ali Baş Komandanımız! Ali Baş Komandan, ölkə Prezidentinin bildirdiyi kimi: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Bəli, bu gün hər birimiz o tarixi anları yaşayırıq. Hər bir Azərbaycan vətəndaşı üçün qürurverici haldır ki, Azərbaycan Ordusu üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir. Və əminliklə düşmənin müzəffər Azərbaycan Ordusundan aldığı cavabı uzun müddət unutmayacaq!

Bəli, 10 dekabr Paradı tariximizin ən parlaq səhifəsi olaraq qalacaqdır. Bu, haqqın-ədalətin, ərazi bütövlüyümüzün bərpa olunduğunun, 30 ilə yaxın torpaqlarımızın düşmən həsarətinə 44 gün ərzində apardığı Vətən Müharibəsinin Şanlı Qələbəsinin və üç rəngli Bayraqğımızın bütün dünyaya nümayiş edildiyi tarix və Meydandır! Qarabağ Azərbaycandır!!!

***RƏFİQƏ KAMALQIZI***

# "ATƏT-in Minsk qrupuna diplomatiya dərsi"



Əli Hüseynli,
Milli Məclisin deputatı

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də ATƏT-in Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrləri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edərkən son dövrlər regionda baş vermiş mühüm tarixi hadisələr və Qarabağ uğrunda başa çatmış Vətən müharibəsindən sonra yaranmış ictimai-siyasi vəziyyətlə bağlı fikirlərini açıqlamışdır.***

O, bildirmişdir ki, 30 ilə yaxın davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşmuşdur. Azərbaycan bu məsələni beynəlxalq hüquq çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi məlum qətnamələrin tələblərinə uyğun şəkildə həll etmiş və bununla da Ermənistanın ərazi iddialarından irəli gələn tarixi ədalətsizliyə son qoymuşdur.

Prezident İlham Əliyev tutarlı arqumentlərlə və tarixi faktlarla ATƏT-in Minsk qrupunun münaqişənin həlli üçün malik olduğu imkanlardan və 28 illik vasitəçilik mandatından heç də səmərəli istifadə etmədiyini göstərmiş və onun fəaliyyətini qənaətbəxş hesab etmədiyini cəsarətlə, açıq şəkildə bəyan etmişdir. O, öz qərarlarını reallaşdıra bilməyən BMT-nin bu məsələdə prinsipiallıq nümayiş etdirmədiyinə eyham vuraraq, Qarabağ probleminin Azərbaycanın öz imkanları hesabına həll olunmasının qaçılmaz olduğunu bildirmişdir. Lakin eyni zamanda bu məsələdə Rusiyanın rolunu kifayət qədər yüksək dəyərləndirərək, Minsk qrupunun üzvlərindən biri kimi Türkiyənin də bölgədə baş verən hadisələrə biganə qalmayaraq ədalətli siyasi mövqe nümayiş etdirdiyinə diqqət yönəltmişdir. O, atəşkəs rejiminə nəzarət etmək məqsədi ilə Azərbaycanın Ağdam rayonunda yaradılan Monitorinq Mərkəzində bu iki ölkənin yer almasını regional əməkdaşlığın çox yaxşı təzahürü, həmçinin Türkiyə ilə Rusiya arasında çox məqbul əməkdaşlığın rəmzi kimi dəyərləndirmişdir.

Bu gün artıq hər kəs anlayır ki, uzun illər ikili standartlardan çıxış edən beynəlxalq təşkilatlar və erməni lobbisinin təsiri altında birtərəfli mövqe sərgiləyən Qərbin siyasi güc mərkəzləri manipulyasiyalar edərək bölgədə status-kvonun saxlamaq və sonda Azərbaycanı mövcud vəziyyətlə barışmağa sövq etmək məqsədi güdmüşlər. Münaqişənin yalnız danışıqlar və dinc vasitələrlə həllinin alternativinin olmadığı barədə 27 il ərzində ortaya atılmış fikirləri müzəffər Azərbaycan ordusu cəmi 44 gün ərzində darmadağın etdi. Bununla da cənab İlham Əliyevin danışıqlar prosesində bir tərəfdən hücum diplomatiyasına, digər tərəfdən isə xalqın etimadına, dəmir yumruq kimi birləşmiş vətəndaş həmrəyliyinə söykənən və münaqişənin hərb variantını istisna etməyən mövqeyinin doğruluğu birdəfəlik sübut olundu: "Biz göstərdik ki, status-kvo güc yolu ilə, şücaət, müdriklik, siyasət, səylərin səfərbər olunması, Azərbaycan xalqının həmrəyliyi, Azərbaycan hökumətinin iradəsi, Azərbaycan xalqının əzmkarlığı, Azərbaycan əsgərinin müzəfferliyi sayəsində dəyişdirilə bilər".

Tariximizə Vətən müharibəsi kimi düşmüş ikinci Qarabağ savaşının nəticəsində ağır məğlubiyyətə uğramış Ermənistanın siyasi rəhbərliyi faktiki olaraq kapitulyasiya aktı olan 10 noyabr tarixli üçtərəfli bəyanatı imzalamağa məcbur olmuşdur. Bu gün həm beynəlxalq aləmdə, həmdə də öz xalqının gözündə nüfuzunu tamamilə itirmiş Ermənistanın avantürist lideri Paşinyan, habelə onun sələfləri Koçaryan və Sarkisyan təkcə təxribatlar törətməklə danışıqlar prosesinin pozulmasına və müharibənin başlanmasına görə deyil, həm də beynəlxalq konvensiyyalara zidd olan, işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşma, mülki insanların öldürülməsi və vandalizm hərəkətləri kimi hərbi cinayət hesab olunan davranışlarına görə məsuliyyət daşıyırlar.

Burada bir məsələni xüsusilə vurğulamağa ehtiyac duyuram. Cənab İlham Əliyevin ifadələrinin bir istiqaməti də belə bir inama bağlıdır ki, Vətən müharibəsinin nəticələri Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsinə səbəb oldu və onunla heç kimin güc dilində danışa bilməyəcəyi barədə reallığı ortaya qoydu.

Azərbaycan isə hər zaman həm danışıqların aparıldığı müddətdə, həm də hərb meydanında beynəlxalq hüquq prinsiplərinə sadiq qaldığını sübut edib, atəşkəs rejiminə ardıcıl riayət edib. Vaxtilə, ötən əsrin sonlarında xüsusi qəddarlıqla 1 milyondan artıq azərbaycanlını öz tarixi vətənindən qovmuş, öz ölkəsində məcburi köçkünə çevirmiş Ermənistandan fərqli olaraq bu gün Azərbaycan yerli erməni sakinlərinə dinc, yanaşı yaşamaq təminatını vermiş, işğaldan azad edilmiş ərazilərdən çıxmaq üçün müvafiq şərait yaratmış, hətta müəyyən güzəştlərə də getmişdir. Cənab İlham Əliyev "Bizim davamız işğalçılarladır, ərazimizi işğal edən cinayətkarlarladır. Ermənilər isə hazırda ölkəmizin müxtəlif bölgələrində yaşadığı kimi, təhlükəsizlik və ləyaqət şəraitində yaşaya bilərlər", söyləməklə dünyada tolerantlıq və multikulturalizm nümunəsi kimi təqdim olunan Azərbaycanın hər zaman ədalətli mövqedə durduğunu və humanist dəyərlərə sadiq qaldığını nümayiş etdirir.

Söhbət əsnasında Minsk qrupunun həmsədrlərinin Azərbaycana səfərinin heç də rəsmi Bakının dəvəti ilə baş tutmadığını və bunun qarşı tərəfin təşəbbüsü olduğunu bildirən Prezident İlham Əliyev əslində güclü diplomatik gediş edərək, Dağlıq Qarabağ münaqişəsinin bitməsi ilə "hazıra nazir" kimi zühur etmiş Minsk qrupunun bu tərkibdəki vasitəçilik fəaliyyətinə ehtiyac qalmadığına incə bir işarə vurmuş oldu.

İşğaldan azad edilmiş ərazilərdə tez bir zamanda yüksək həyat şəraitinin yaradılması üçün dövlətimizin böyük siyasi iradəyə malik olduğunu bildirən ölkəmizin rəhbəri eyni zamanda Ermənistanın Azərbaycana vurduğu çoxmilyardlıq ziyana görə beynəlxalq hüquq müstəvisində cavab verəcəklərinə əminliyini ifadə etmişdir: "Biz artıq şəhərlərimizə qarşı törədilən əməllərlə bağlı hüquqi prosedurlara başlamışıq. Biz beynəlxalq tərəfdaşlarımızı dəvət etmişik ki, mülki əhalimiz, infrastrukturumuz, dini və mədəni abidələrimizə dəymiş ziyanın müvafiq təhlili aparılsın. Hər bir şey sənədləşdiriləcək və biz bu cür şəraitə uyğun olaraq zəruri addımlarımızı atacağıq".

Dövlətimizin başçısı Vətən müharibəsindən sonra regionun gələcək inkişafı ilə bağlı müzakirələr üçün yeni imkanların yarandığına, Rusiya, Türkiyə kimi qonşu ölkələrin yaxından iştirakı ilə bölgədə yeni iqtisadi-siyasi konfiqurasiyanın formalaşacağına əminliyini ifadə etmişdir. Prezident İlham Əliyev sülh və əmin-amanlıq naminə bölgədə yeni nəfəsə ehtiyac duyulduğunu Minsk qrupunun həmsədrləri vasitəsilə bütün dünyaya bəyan etmişdir: "Regionda yeni inkişaf olmalıdır. Azərbaycan buna hazırdır. Azərbaycan iqtisadi və hərbi baxımdan güclüdür. Ölkəmiz çox geniş beynəlxalq dəstəyə malikdir. Ölkəmiz bu gün BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilata - Qoşulmama Hərəkatına sədrlik edir. Əlbəttə, biz bunu işimizin bir hissəsi kimi icra edəcəyik ki, uzunmüddətli sabitlik və təhlükəsizlik təmin olunsun".

Düşünürəm ki, bunu təkcə Azərbaycan üçün deyil, həm də beynəlxalq əhəmiyyətli, çoxşaxəli siyasi və iqtisadi tarixi nailiyyətlərin anonsu kimi dəyərləndirmək lazımdır.

# "Prezident İlham Əliyev ABŞ tərəfindən Türkiyəyə qarşı tətbiq olunan birtərəfli sanksiyaları qəbuledilməz hesab edir"



Prezident İlham Əliyev S-400 hava hücumundan müdafiə sistemlərinin alınmasına görə ABŞ tərəfindən Türkiyəyə qarşı tətbiq olunan birtərəfli sanksiyaları qəbuledilməz hesab edir. NATO-ya üzv bəzi ölkələr tərəfindən analoji hava hücumundan müdafiə sistemi istifadə edildiyi halda, Türkiyəyə qarşı sanksiyaların tətbiq olunması ədalətsizlikdir. Dövlətimizin başçısı bu halı ikili standartların təzahürü və qanunsuzluq kimi dəyərləndirir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri mətbuata açıqlamasında Prezidentin köməkçisi Hikmət Hacıyev bildirib. Hikmət Hacıyev deyib: "Prezident İlham Əliyev əminliyini bildirib ki, bu sanksiyalar Türkiyənin öz müdafiə qabiliyyətini gücləndirmək istiqamətində atdığı addımlara manea yaratmayacaq. Türkiyənin bu məsələnin müvafiq işçi qrupu çərçivəsində obyektiv və siyasi baxımdan qərəzsiz şəkildə müzakirə edilməsi barədə təkliflərinə adekvat cavab verilməyib.

Azərbaycan Türkiyəni, Türkiyə isə Azərbaycanı dəstəkləyir və ölkələrimiz daim bir-birinin yanındadır. Dekabrın 10-da Bakıda keçirilmiş Zəfər paradında Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı Azərbaycan və Türkiyənin birliyinin növbəti nümunəsidir".

# Rusiya ABŞ-ın Türkiyəyə qarşı sanksiyalar tətbiq etməsini pisləyib



Rusiyanın xarici işlər naziri Sergey Lavrov ABŞ-ın Türkiyəyə qarşı sanksiyalar tətbiq etməsini pisləyib. AZƏRTAC xəbər verir ki, bu fikri Rusiya XİN-in başçısı Bosniya və Herseqovina prezidiumunun üzvü Milord Dodik ilə Moskvadakı görüşünün yekunlarına dair keçirilən mətbuat konfransında bildirib. O deyib ki, ABŞ Türkiyəyə qarşı C-400 zenit-raket komplekslərinə görə sanksiyalar tətbiq edib. Nazir bunu beynəlxalq hüquqa qarşı növbəti təkəbbürlü münasibət, ənənəvi birtərəfli qeyri-legitim məcburetmə tədbiri kimi qiymətləndirib. S.Lavrovun fikrincə, bu cür yanaşma beynəlxalq aləmdə ABŞ-ın nüfuzunu artırmır.

Xatırladaq ki, ABŞ Türkiyə Müdafiə Sənayesi İdarəsi, onun rəhbəri İsmayıl Dəmir və daha üç Türkiyə vətəndaşına qarşı sanksiya tətbiq edib. Dövlət katibi Maykl Pompeo yeni sanksiyaların Türkiyənin Rusiyadan C-400 zenit-raket sistemləri alması ilə bağlı olduğunu təsdiqləyib.

# Oqtay Tanrısevər: Zəfər paradı Azərbaycanın güclü dövlət olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi



Bakıda keçirilən möhtəşəm Zəfər paradı Azərbaycanın güclü dövlət olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi. Digər tərəfdən, beynəlxalq ictimaiyyət bir daha Azərbaycan-Türkiyə birliyinin nəyə qadir olduğunu, bölgə üçün nə qədər əhəmiyyət daşıdığının təkrar şahidi oldu. Bu fikirləri AZƏRTAC-a açıqlamasında türkiyəli professor Oqtay Tanrısevər söyləyib. Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin bütün bölgə üçün əhəmiyyətli olduğunu diqqətə çatdıran professor deyib: "Azərbaycanın işğaldan azad edilmiş bütün torpaqlarında canlanma yaranacaq. Əlamətdar haldır ki, Türkiyə də işğaldan xilas edilmiş Azərbaycan torpaqlarında bərpa işlərində yaxından iştirak edəcək. Azərbaycan xalqı torpağına və Vətəninə o qədər bağlıdır ki, bu mənəvi dəyərlər Vətən müharibəsində olduğu kimi, quruculuq prosesində də özünü göstərəcək. Azərbaycan Prezident İlham Əliyevin liderliyi ilə işğaldan xilas edilmiş bölgələrin bərpasını, bu bölgədə yeni həyatın qurulmasını qısa müddətdə başa çatdırmaq iqtidarındadır".

Prezident İlham Əliyevin təklif etdiyi altıtərəfli əməkdaşlıq platformasını regional inkişaf təşəbbüsü kimi dəyərləndirən Oqtay Tanrısevər vurğulayıb ki, Ermənistan işğalçılıq niyyətindən və əsassız iddialarından əl çəkərsə, bölgədə yeni və sağlam münasibət formalaşar. Bunun üçün Ermənistan Azərbaycanın və Türkiyənin ərazi bütövlüyünü tanımalı, mehriban qonşuluq və əməkdaşlıqda maraqlı olduğunu təsdiq edən addımlar atmalıdır.

# YAP Səbail rayon Gənclər Birliyini növbəti sosial aksiyasını həyata keçirdi




Yeni Azərbaycan Partiyası həm COVID-19 koronavirus pandemiyası ilə əlaqədar respublika ərazisində elan olunmuş karantin dövründə, həm də Vətən müharibəsi günlərində daim vətəndaşları narahat edən problemləri diqqət mərkəzində saxlayır və əhalinin həssas təbəqəsinə aid olan, xüsusi qayğıya ehtiyacı olan vətəndaşlara, o cümlədən ahıllara, tənha xəstələrə, kimsəsizlərə, aztəminatlı ailələrə, şəhid və veteran ailələlərinə, əlillərə lazımi diqqət göstərir. Azərbaycan xalqının 30 ilə yaxındır ki, həsrətində olduğu torpaqlarımızın işğaldan azad olunması və Azərbaycanın möhtəşəm tarixi qələbəsi ilə nəticələnən İkinci Qarabağ, Vətən müharibəsi dövründə Yeni Azərbaycan Partiyası Vətən uğrunda döyüşərək canlarından keçən Şəhidlərimizin ailələrini, sağlamlığını bu müqəddəs amal uğrunda verən qazilərimizi və hərbi xidmətdə olan əsgər-zabitlərimizin ailələrini daim xüsusi diqqət, qayğı mərkəzində saxlayır.

Bugünlərdə YAP Səbail rayon Gənclər Birliyinin üzvləri bu çərçivədə növbəti humanitar aksiya həyata keçirdi. Gənclər, hərbi xidməti davam edən Səbail rayon sakininin ailəsinə baş çəkdilər və pandemiya ilə mübarizə üçün ölkədə elan olunmuş sərt karantin rejimi ilə əlaqədar əsgərin körpəsinə gündəlik qidalanma və qulluq vasitələrini çatdırdılar.

Allah Azərbaycan Ordusunu və əsgər-zabitlərimizi qorusun!

# Vüqar Rəhimzadə: "Müvafiq mandata sahib olan ATƏT-in Minsk qrupu 28 ildə münaqişənin həllində heç bir rol oynamayıb"

***Prezident İlham Əliyevin ATƏT-in Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrləri ilə görüşündəki nitqi təkcə 44 günlük müharibənin deyil, ümumilikdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinin, problemin həllində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətinin qiymətləndirilməsi, Azərbaycanın möhtəşəm hərbi-siyasi Qələbəsinin səbəbləri və nəticələri, haqq-ədalətin bərpası, işğala son qoyulması ilə regionda yeni reallıqların yaranması, qarşıda dayanan vəzifələrə aydınlıq gətirilməsi baxımından xüsusi diqqət çəkir.***



Münaqişənin davam etdiyi dövrdə Azərbaycan sülh danışıqlarına sadiqliyini hər addımda təsdiqlədiyi halda, Ermənistan və ona havadarlıq edən dövlətlər isə təxribatçı əməlləri və bitib-tükənməyən yalanları ilə problemin həllində maraqlı olmadıqlarını açıq-aşkar büruzə verirdilər. Nəticədə işğalçı Ermənistan havadarları tərəfindən ona göstərilən maddi və mənəvi dəstəkdən daha da ruhlanaraq yeni ərazilərimizi işğal etmək üçün planlar hazırlayırdı. Dövlətimizin başçısı İlham Əliyev hələ İkinci Qarabağ müharibəsi başlamamışdan öncə BMT Baş Assambleyasının 75-ci Sessiyasında Ermənistanın yeni müharibə planlarını dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqətinə çatdırsa da, bu xəbərdarlıq həmin dairələrin maraqlarına cavab vermədiyi üçün susqunluqla qarşılandı. İşğalçı Ermənistan sentyabrın 27-də müxtəlif istiqamətlərdən Azərbaycana hücum etməklə bu planını açıq-aydın nümayiş etdirəndə bütün dünya, o cümlədən münaqişənin sülh və danışıqlar yolu ilə həllinə məsul olan ATƏT-in Minsk qrupunun həmsədrləri özlərini sanki baş verən hadisələrdən xəbərsiz kimi aparırdılar.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə bildirib.

V.Rəhimzadə vurğulayıb ki, dövlətimizin başçısı İlham Əliyev qeyd olunan görüşdə diqqəti 44 günlük müharibənin gedişinə, nəticələrinə, həmçinin 28 ildə aparılan danışıqlar prosesinə yönəldərək beynəlxalq vasitəçilərin rolunun qiymətləndirilməsini də bir zərurət kimi ortaya qoydu: "Azərbaycan 30 ilə yaxın davam edən Ermənistan-Azərbaycan münaqişəsinin həllinə hərbi-siyasi vasitələrlə nail oldu. Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşdu. Müvafiq mandata sahib olan ATƏT-in Minsk qrupu 28 il ərzində münaqişənin həllində heç bir rol oynamayıb. BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in, digər beynəlxalq təşkilatların qərarlarına baxmayaraq, bu illər ərzində münaqişə niyə həllini tapmayıb? BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü bunu bacarmadı, yoxsa istəmədi? Münaqişənin həllində möhkəm hüquqi baza mövcud olduğu halda 30 il həllini gözləməsi ədalətə nə dərəcədə uyğun idi? Bu qəbildən olan sualları xeyli sayda sadalamaq olar. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, hazırda bu, artıq fərq etmir. Münaqişə həll olunub. Azərbaycan haqqı-ədaləti bərpa edib, işğala son qoyub. "Hərbi variant yoxdur" deyən dövlətlərin özləri də anlayırlar ki, var idi, çünki onlar, sadəcə, mövcud vəziyyəti olduğu kimi saxlamaq istəyirdilər".

Baş redaktor bildirib ki, ATƏT-in Minsk qrupunun həmsədrləri dəfələrlə status-kvonun saxlanmasının qəbuledilməzliyini bildirsələr də, zaman keçdikcə bunun əksini söyləməyə, nə yolla olursa-olsun status-kvonu qorumağa çalışırdılar: "Amma Azərbaycan dövlətinin, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti, rəşadətli Ordumuzun gücü, qüdrəti, xalqımızın birliyi, həmrəyliyi, dəmir yumruq kimi birləşməyimiz sayəsində status-kvo dəyişdi. Dövlətimizin başçısı İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi bu fikirləri bir daha xatırlatmaq istərdik: "Status-kvo deyilən məsələ yoxdur, qurtardı getdi. Status-kvo belə olmalıdır, elə olmalıdır. Mən dəyişdirdim status-kvonu, dəyişdirdim. Bax orada, döyüş meydanında. Yoxdur status-kvo, təmas xətti yoxdur, yarmışıq onu, 30 il onlar qururdular bu təmas xəttini".

"Azərbaycan Ermənistanı döyüş meydanında məğlub edib və kapitulyasiya aktına imza atmağa məcbur edib", - söyləyən Vüqar Rəhimzadə bildirib ki, İkinci Qarabağ müharibəsinin Azərbaycanın hərbi-siyasi Qələbəsi ilə başa çatmasından, dünyaya bu Qələbənin təqdimatında əhəmiyyətli rola malik olan Zəfər paradının keçirilməsindən sonra ATƏT-in Minsk qrupunun həmsədrlərinin ölkəmizə səfəri təəccüb doğurmaya bilməz. Bu səfər dövlətimizin başçısının qeyd etdiyi kimi, onların öz təşəbbüsləri olub, Azərbaycan tərəfi sadəcə bu təklifə etiraz etməyib. 30 ilin reallığı budur ki, Azərbaycan ATƏT-in Minsk qrupunun həmsədrlərindən ədalət, işğalçını yerində oturtmasını, beynəlxalq təşkilatların qərar və qətnamələrinin icrası üçün cəza və sanksiyaların tətbiqini gözləyib, amma həmsədr dövlətlər susmağa, seyrçi mövqedə dayanmağa üstünlük veriblər. Azərbaycan işğalçı Ermənistanın və onun havadarlarının 30 illik yalanlarına, vaxt qazanmaq üçün imitasiya naminə danışıqların aparılmasına 44 günlük müharibə ilə son qoydu. 30 ildə yaradılan beynəlxalq hüququn, ədalətin yoxluğu görüntüsünü haqqı-ədaləti bərpa etməklə puç etdi. Azərbaycan dünyaya göstərdi ki, beynəlxalq hüququn norma və prinsipləri mövcuddur. Onların icrası zaman və məkana görə deyil, vahid mexanizm əsasında həyata keçirilməlidir. Dünya dövlətlərinin xarici siyasətinin yenidən formalaşması Azərbaycanın qətiyyətli mövqeyinin, beynəlxalq aləmə ünvanladığı ədalət çağırışının nəticəsidir.

"Bundan sonra ATƏT-in Minsk qrupunun həmsədrləri hansı istiqamətdə fəaliyyət göstərə bilərlər" sualı ətrafında fikirlərini açıqlayan V.Rəhimzadə qeyd edib ki, artıq status-kvo, Madrid prinsipləri kimi anlayışlar olmadığı bir dövrdə həmsədrlər regionda yeni reallığa uyğun olaraq xalqları sülhə hazırlamalı, yol və kommunikasiya xətlərinin açılması kimi məsələlərlə məşğul ola, buna uyğun olaraq yeni fəaliyyət proqramının ortaya qoyulması ilə regionda davamlı sülhün təmin olunmasına töhfə verə bilərlər. Vasitəçilər neytral olmalıdır. Lakin çox təəssüflər olsun ki, Azərbaycan ötən 28 ildə bunu ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətində görmədi. ATƏT-in Minsk qrupunun üç həmsədr dövlətindən biri olan Fransa daim ermənipərəst siyasəti ilə diqqət çəkib və bu gün də ənənəsini davam etdirir. 28 ildə vasitəçilik missiyasının mahiyyətini dərk etməyən həmsədrlərin postmüharibə dövrünün reallıqlarını qəbul edib hədəflərə nail olmaq üçün səylər göstərmələri inandırıcı görünmür. Bu baxımdan ATƏT-in Minsk qrupunun tərkibinin dəyişdirilməsi məsələsi daha çox müzakirə olunan təkliflər sırasındandır.

Baş redaktor bildirib ki, dövlətimizin başçısı İlham Əliyev görüşdə Ermənistanın törətdiyi hərbi cinayətlərin hazırda sənədləşdirildiyini, Azərbaycanın artıq törədilən cinayət əməlləri ilə bağlı hüquqi proseduralara başladığını qeyd etdi. V.Rəhimzadə diqqəti Ermənistan hakimiyyətinin illərdir işğal olunmuş ərazilərimizdə süni məskunlaşdırma siyasəti həyata keçirdiyinə, ATƏT-in Faktaraşdırıcı Missiyasının iki dəfə həmin ərazilərdə olarkən bu faktı təsdiqləsə də hesabatlarında onun kim tərəfindən həyata keçirildiyini qeyd etməyi məqsədəuyğun hesab etmədiklərinə, işğalçının adı ilə çağırılmasının münaqişənin həllinə mane ola biləcəyini söyləməyi çıxış yolu hesab etmələrinə yönəldib: "Belə yanaşmalar Azərbaycan dövlətinin, xalqının səbir kasasını doldurdu. Ermənistan silahlı qüvvələri 44 gündə Azərbaycan Ordusunun belə qətiyyətli və peşəkar əks-hücum əməliyyatları ilə üzləşəcəklərini düşünmürdülər. Azərbaycan 10 noyabr Bəyanatının imzalanması ilə hərbi-siyasi Qələbəsini, Ermənistanın kapitulyasiyasını dünyaya nümayiş etdirdi. Artıq postmüharibə dövrünün hədəflərinin icrası istiqamətində addımlar atılır. Azərbaycanın tarixi Qələbəsi ümumilikdə regionda yeni reallıqlar yaradıb. Regionda yaradılan yeni əməkdaşlıq formatı çoxtərəfliliyi ilə diqqət çəkir. Ermənistanın da bu əməkdaşlıqda təmsil olunması təklif edilir. Hazırda sülhməramlı əməliyyatlar Rusiya tərəfindən aparılır. Ermənistan və Azərbaycan da bunu dəstəkləyib. Eyni zamanda, Ağdam rayonunda yaradılan Türkiyə-Rusiya Monitorinq Mərkəzi atəşkəs rejiminə nəzarət edəcək. Bu, regional əməkdaşlığın çox yaxşı təzahürü, Türkiyə ilə Rusiya arasında yüksək əməkdaşlığın rəmzidir. Mövcud reallıqlara uyğun olaraq addımların ardıcıl şəkildə atıldığı bir zamanda ATƏT-in Minsk qrupunun həmsədrlərinin ölkəmizə səfəri hər kəsdə yalnız və yalnız 28 ilin turist səfərini, qonaq təəssüratını yaratdı. 28 ilin inamsızlıq mühitini bir saatda dəyişmək onlar üçün asan görünsə də, reallıq bunun əksini deyir".

## Bəhruz Quliyev: "Bundan sonra Minsk qrupu hansı istiqamətdə fəaliyyət göstərə bilər?"



"Azərbaycan 30 ilə yaxın davam edən Ermənistan-Azərbaycan münaqişəsinin həllinə hərbi-siyasi vasitələrlə nail oldu, Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşdu. Müvafiq mandata sahib olan ATƏT-in Minsk qrupu 28 il ərzində münaqişənin həllində heç bir rol oynamadı". SİA-nın verdiyi məlumata görə, bunu Trend-ə açıqlamasında SƏS Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib.

Siyasi ekspertin sözlərinə görə, ATƏT-in Minsk Qrupunun həmsədrləri vasitəçi olaraq ortaq mövqe tutmalıdırlar: "Amma təəssüflər olsun ki, biz 28 ildir ki, həmsədrlərin tərəf göstərdiklərinin şahidi olmuşuq. 44 günlük Vətən müharibəsi dönəmində də ATƏT-in Minsk Qrupunun fransalı həmsədrinin və eləcə də Fransa prezidenti Emmanuel Makronun Ermənistana yönəlik tərəfkeşliyi göstərdi ki, onlar vasitəçi kimi öz missiyalarını layiqincə yerinə yetirə bilməzlər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin illərlə dondurulmuş vəziyyətdə saxlanılmasına səbəb də məhz həmsədrlərin fəaliyyətsizliyi olub. Əgər həqiqətən də onlar problemin sülh yolu ilə həllinin tərəfdarı olsaydılar o zaman birtərəf mövqe sərgiləyərdilər. Zaman göstərdi ki, onların fəaliyyəti bəzi Avropa ölkələri, təşkilatları kimi ikili standartlara söykənib. Onların səriştəsiz fəaliyyəti nəticəsində torpaqlarımız illərdir ki, işğal altında qaldı. Həmsədrlər status-kvo-nun qorunub saxlanılmasında maraqlı idilər. Prosesin və münaqişənin uzanmasına səbəb də məhz bu kimi amillər idi. Ən əsası isə odur ki, Azərbaycan dövləti hərbi-siyasi yolla öz torpaqlarını işğaldan azad etdi. Bu gün ATƏT-in Minsk Qrupunun üzərinə düşən ən əsas şey öz üzərlərində bir qədər redaktə etmələridir. Xatırlayırsınızsa, onlar vaxtilə münaqişənin hərbi yolla mümkünsüz olduğunu ancaq sülh yolu ilə mümkün olduğunu dilə gətirirdilər. Amma biz sübut etdik ki, münaqişənin hərb yolu və ondan sonra isə siyasi yolu vardır. Sadəcə onlar boş-boş danışıqlarla vaxt uzatmağa çalışdılar. Cənab Prezident İlham Əliyev də dəfələrlə çıxışlarında bildirib ki, Minsk Qrupu həmsədlərinin heç bir fəaliyyəti olmayıb.

Bundan sonra ATƏT MQ həmsədrləri hansı istiqamətdə fəaliyyət göstərə bilərlər? Artıq status-kvo, Madrid prinsipləri kimi anlayışlar olmadığı bir dövrdə ATƏT MQ həmsədrləri regionda yeni reallığa yuğun olaraq xalqların sülhə hazırlanması, etimad quruculuğu, etnik barışığın təmin olunması, yol və kommunikasiya xətlərinin açılması kimi məsələlərlə məşğul ola bilər. Buna uyğun olaraq yeni fəaliyyət proqramı ortaya qoymalıdır. Bu yolla regionda davamlı sülhün təmin olunmasına töhfə bilər. Amma fərdi olaraq Minsk Qrupu üzv dövlətləri xüsusilə Fransa qərəzli mövqeyini kənara qoymalı və neytral tərəf olduğunu sübut etməlidir. Eyni zamanda Minsk qrupda iştirak edən 11 dövlətin hamısı o cümlədən Türkiyə bu prosesdə yaxından iştirak etməlidir. Hər hansı diskriminasiya və ya prosesin siyasi inhisara alınması baş verməməlidir".

B.Quliyev bildirib ki, ümumiyyətlə son illər ərzində ATƏT-in Minsk Qrupu həmsədrlərinin hər üçü mövqe göstərdiklərinə görə onların dəyişdirilməsi məsələ gündəmə gətirilməlidir: "Onlar münaqişə zonasından aralıdırlar və probleme dərənindən bələd deyillər. Çünki bu gün regionda yeni bir güc formalaşır. Regionun problemlərinin həllində yaxın super-dövlətlər təmsil olunmalıdırlar. Rusiya və Türkiyə faktoru bütün dönəmlərdə nəzərə alınıb və Minsk Qrupunun həmsədlərinin formalaşmasında da bu iki faktordan istifadə olunmalıdır".

Qurum rəsmisi əlavə edib ki, regiona yeni canlanma gətirilməli, yeni inkişaf olmalıdır: "Azərbaycan iqtisadi və hərbi baxımdan güclü dövlətdir və buna hazırdır. Azərbaycan bunu öz işinin bir hissəsi kimi icra edəcək ki, uzunmüddətli sabitlik və təhlükəsizlik təmin olunsun. Azərbaycanın qələbəsi Naxçıvanla Azərbaycanın digər hissəsi arasında quru yolla əlaqəni təmin etdi və ümumilikdə Cənubi Qafqaz regionunun inkişafına dair müzakirələr üçün yeni imkanlar açdı".

***Ceyhun Rasimoğlu***


მთავარი · ბოლო სიახლეები · პოლიტიკა · ეკონომიკა · საზოგადოება · მსოფლიო · სამართალი · კრიმინალი · კულტურა · სპორტი · მულტიმედია · ქვიზები · სხვა

მთავარი → მსოფლიო → აზერბაიჯანის თავდაცვის სამინისტრო ვიდეოს ავრცელებს - VIDEO

აზერბაიჯანის თავდაცვის სამინისტრო ვიდეოს ავრცელებს - VIDEO

13 დეკემბერი, 2020 10:43

აზერბაიჯანის თავდაცვის სამინისტრო ვიდეოკადრებს ავრცელებს, რომლებზეც, უწყების ცნობით, ქალბაჯარის რაიონის ოკუპაციისგან გათავისუფლებული სოფელი ზეილიკია აღბეჭდილი.

ბოლო სიახლეები

აჭარის მთავრობის სახლის წინ ოპოზიცია ხელახალი არჩევნების ჩატარებას ითხოვს
13 დეკემბერი, 2020 16:41

პოლონეთში აბორტის აკრძალვას აპროტესტებენ
13 დეკემბერი, 2020 16:37

CNN: რა ვიცით ვაქცინის გვერდითი ეფექტების შესახებ
13 დეკემბერი, 2020 16:26

ზურა დოიჯაშვილის საქართველოში დასაბრუნებლად კულტურის პალატა თანხას აგროვებს
13 დეკემბერი, 2020 16:15

აზერბაიჯანში COVID-19-ის 4,451 ახალი

# Gürcüstan mətbuatı ermənilərin Qarabağdakı təxribatlarından yazır

Gürcüstanın aparıcı report.ge, 24news.ge, interpress.ge, aktual.ge informasiya portalları, "maestro" televiziya və radiosu, 1tv.ge televiziyası və portalı ermənilərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində atəşkəs rejiminin pozması ilə müşayiət olunan təxribatlarından yazıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Dövlət Təhlükəsizlik Xidmətinin birgə bəyanatına istinadla yayılan xəbərlər oxucuların diqqətinə Azərbaycan, rus, gürcü və rus dillərində çatdırılıb.

Bildirilir ki, Qarabağda atəşkəsin elan olunmasından sonra Azərbaycanın Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə qalan bəzi erməni silahlı birləşmələri ərazini tərk etməyib, əksinə döyüş mövqeləri yaradıb və son günlər qeyd olunan ərazidə Azərbaycan tərəfdən mülki xidmətləri həyata keçirən şəxslərə və hərbi qulluqçulara qarşı terror-təxribat və diversiya əməlləri törədiblər.

Qeyd olunan faktlar nəzərə alınaraq, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Xidməti həmin ərazidə antiterror əməliyyatı keçirmək məcburiyyətində qalıb. Bütün bunlara görə məsuliyyətin Ermənistan rəhbərliyinin üzərində qaldığı qeyd olunur.

# Azərbaycanda koronavirus infeksiyasına daha 3112 yoluxma faktı qeydə alınıb, 2923 nəfər sağalıb


Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət

| Ümumi | | Bu gün 14.12.2020 | |
|---|---|---|---|
| Ümumi yoluxanların sayı | 178986 | Yeni yoluxanların sayı | 3112 |
| Ümumi sağalanların sayı | 114841 | Yeni sağalanların sayı | 2923 |
| Aktiv xəstə sayı | 62179 | Bugünkü test sayı | 10045 |
| Ümumi test sayı | 1963348 | Bugünkü ölüm sayı | 44 |
| Ümumi ölüm sayı | 1966 | | |

Koronavirus İnformasiya Portalı · koronavirusinfoaz · KoronaVirus informasiya portalı · KoronaVirus info

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 3112 yoluxma faktı qeydə alınıb, 2923 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 44 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 178 min 986 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 114 min 841 nəfər müalicə olunaraq sağalıb, 1966 nəfər vəfat edib. Aktiv xəstə sayı 62179 nəfərdir. Ötən müddət ərzində 1 milyon 963 min 348 test aparılıb. Bugünkü test sayı isə 10045-dir.

# Himayəsində azı 3 nəfər olan ailənin aylıq gəlirindən vergi necə tutulur?



Vergi Məcəlləsinə əsasən, qohumluq dərəcəsindən asılı olmayaraq himayəsində azı 3 nəfər, o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagirdlər və tələbələr olan ər və ya arvaddan birinin vergi tutulmalı olan aylıq gəliri 50 manat məbləğində azaldılır. AZƏRTAC Dövlət Vergi Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinə istinadla xəbər verir ki, bu qayda uşaqların 18 yaşa, tələbələrin və şagirdlərin 23 yaşa çatdığı ilin sonunadək, habelə uşaqların və himayədəkilərin öldüyü hallarda ölüm ilinin sonunadək saxlanılır. Fiziki şəxslərin vergi tutulan gəliri uşağın doğulduğu və himayədə olanın himayəyə götürüldüyü aydan başlayaraq azaldılır.

Təqaüd, pensiya və işsizlikdən sığorta ödənişi alan şəxslər (uşaqlardan başqa), dövlət təminatında olan şəxslər (texniki-peşə məktəblərinin şagirdləri, uşaq və körpə evlərində tərbiyə alanlar), xüsusi məktəblərin şagirdləri və internat evlərində olan, saxlanmasına görə qəyyumlardan haqq alınmayan uşaqlar, habelə tam dövlət təminatındakı məktəblər yanında internatlarda olan uşaqlar himayədə olanlara aid edilmir.

# Bu il 1200-ə qədər şəhid ailəsinə təqaüd təyin edilib



Bu il 1200-ə qədər şəhid ailəsinə təqaüd təyin edilib. SİA xəbər verir ki, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıbov deyib. O bildirib ki, nazirlik həmçinin şəhid ailələrinə psixoloji yardım göstərir: "Bununla yanaşı, erməni təcavüzü nəticəsində təsərrüfatına ziyan dəyən ailələrə də dəstək layihəsi həyata keçirilir. Həmin ailələrin özünü məşğulluğu ilə bağlı tədbirlər görülür".

# Roma şəhərinin meri Azərbaycana təşəkkür edib


MENU | CERCA · la Repubblica · ABBONATI | QUOTIDIANO R | ACCEDI

Seguici su:

Roma

CERCA

HOME · CRONACA · SPORT · FOTO · RISTORANTI · VIDEO · ANNUNCI LOCALI · CAMBIA EDIZIONE

Torna alla luce una nuova porzione dei Fori Imperiali: scoperta una testa di Augusto. "Recuperato un pezzo di storia sconosciuta"

*Il ritrovamento a conclusione degli scavi portati avanti dalla Sovrintendenza capitolina. Ora grazie a una passerella sarà possibile vedere tutta l'area archeologica con un solo colpo d'occhio*

Roma şəhərinin tarixi ərazisi olan Fori İmperialidə yerləşən Via Alessandria küçəsində arxeoloji qazıntı işlərinin tamamlanması və həmin işlər vaxtı aşkarlanmış heykəltəraşlıq və memarlıq tapıntılarının təqdimatı ilə bağlı Roma şəhərinin meri Vircinia Racci, Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə və şəhərin digər rəsmilərinin iştirakı ilə Romanın məşhur Mercati di Traiano muzeyində mətbuat konfransı keçirilib.

Mətbuat konfransında Roma şəhərinin meri Vircinia Racci Via Alessandria küçəsində həyata keçirilmiş arxeoloji qazıntı işlərinin tamamlanması və onun nəticəsi olaraq nadir heykəltəraşlıq və memarlıq əsərlərinin tapılmasının Roma şəhərinin həyatında böyük hadisə olduğunu bildirib və müvafiq arxeoloji qazıntı işlərinin həyata keçirilməsinə göstərdiyi dəstəyə görə Azərbaycan Respublikasına dərin təşəkkürünü bildirib.

Tədbirdə çıxış edən səfir Məmməd Əhmədzadə multietnik və multikultural ölkə olan Azərbaycanın digər xalqların mədəniyyətinə də diqqət və qayğı ilə yanaşdığını, dünyanın müxtəlif ölkələrində tarixi, mədəni və dini abidələrin qorunması və bərpası məsələsini hər zaman diqqətdə saxladığını bildirib. Roma şəhərinin qədim irsinin bütün bəşəriyyətə aid olduğunu deyən diplomat əbədi şəhər və sivilizasiyanın beşiyi olan İtaliyanın paytaxtının Azərbaycanın qəlbində xüsusi yerinin olduğunu vurğulayıb. M.Əhmədzadə Roma şəhərinin Fori İmperiali ərazisindəki Via Alessandria küçəsində arxeoloji qazıntı işlərinin 2014-cü ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin İtaliyaya rəsmi səfəri vaxtı Roma şəhər meriyası ilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında imzalanmış müqavilə əsasında həyata keçirildiyini xatırladıb, həmin qazıntı işlərinin öz hədəflərindən daha da irəli getdiyini və bir sıra dəyərli tapıntıların aşkarlanmasına səbəb olduğunu deyib. Həmin arxeoloji tapıntıların bu ilin fevral ayında Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri vaxtı meriyanın binasındakı Culio Cesare zalında şəhərin meri Vircinia Raccinin təşkilatçılığı ilə keçirilmiş mərasimdə nümayiş etdirildiyini diqqətə çatdırıb. Diplomat hazırkı mətbuat konfransının keçirildiyi Mercati di Traiano muzeyinin bu ilin 28 may tarixində Respublika Günü münasibətilə Azərbaycan Respublikasının bayrağının rəngləri ilə işıqlandırılmasına görə Roma şəhərinin merinə təşəkkür edib və bunun İtaliya xalqının Azərbaycana dostluğunun nümayişi olduğunu bildirib. M.Əhmədzadə Azərbaycan-İtaliya strateji tərəfdaşlığında Roma şəhərinin xüsusi rola malik olmaqda davam edəcəyini vurğulayıb.

Qeyd etmək lazımdır ki, müvafiq mətbuat konfransı Roma şəhərinin sosial şəbəkə profillərində canlı yayımlanıb, eləcə də mətbuat konfransı, xüsusilə də qazıntı işlərinin Azərbaycanın dəstəyi ilə həyata keçirilməsi və M.Əhmədzadənin müvafiq fikirləri İtaliyanın çoxsaylı kütləvi informasiya vasitələri, o cümlədən Tgcom.24.mediaset, Artribune, Lavorolazio, Prima Press, İl Corriere della Citta, Abitarearoma, World Magazine, Il Tempo, Musei in Roma, AGI, Artslife, Meteoweb, Giornale Diplomatico, TgTourims, Roma Repubblica, MSN, Radio Roma Italia Sera, Italia Star Magazine, Terzo Binario, Periodically, Roma Today, Il Messaggero və sair kimi mətbuat orqanları tərəfindən işıqlandırılıb.

# "Bakcell"in Klass tariflərində eyni qiymətə daha çox dəqiqə və internet




Bakcell özünün yenilənmiş Klass tarifləri vasitəsilə indi eyni qiymətə daha çox internet və dəqiqə təklif edir. Bundan sonra, Bakcell abunəçiləri istifadə etdikləri Klass paketlərində daha çox internet və dəqiqə əldə edərək ölkənin ən sürətli mobil şəbəkəsinin potensialından və üstün müştəri təcrübəsindən yararlana biləcəklər. Yeni Klass tarifləri aşağıdakı üstünlükləri təqdim edir:

- "Klass 10" (əvvəlki "Klass XL" tarifi): ayda 10 manata 1 GB İnternet və 250 dəqiqə əvəzinə 2 GB İnternet və 300 ölkədaxili dəqiqə;
- "Klass 25" (əvvəlki "Klass XXL"): ayda 25 manata 2 GB İnternet və 750 dəqiqə əvəzinə 15 GB İnternet, 800 şəbəkədaxili və 250 şəbəkəxarici dəqiqə;
- "Klass 50" (əvvəlki "Klass 3XL"): ayda 50 manata 10 GB İnternet və 2000 dəqiqə əvəzinə 20 GB İnternet, şəbəkədaxili zənglər üçün 2500 dəqiqə, şəbəkəxarici zənglər üçün 500 dəqiqə və rouminqdə 2 GB İnternet trafiki (1GB əvəzinə);
- "Klass 5" (əvvəlki "Klass L"): ayda cəmi 5 manata 100 ölkədaxili dəqiqə və 500 MB (200 MB əvəzinə).

Bundan əlavə, Bakcell tam yeni "Klass 15" tarifini təqdim edib. Bu tarif sayəsində abunəçilər ayda 15 AZN ödəməklə ölkədaxili zənglər üçün 450 dəqiqə və 5 GB İnternet əldə edəcəklər. Yeni Klass tarifləri və qoşulma şərtləri barədə daha ətraflı məlumat https://www.bakcell.com/klass/az/klass/ səhifəsində yerləşdirilib. "Biz müasir mobil telekommunikasiya xidmətləri istifadəçilərinin tələb və ehtiyaclarını nəzərə alaraq şirkətimizin təqdim etdiyi müştəri təcrübəsinin təkmilləşdirilməsi üzərində daim çalışırıq. "Klass" tarifinin istifadəçiləri indi eyni qiymətə daha çox internet trafiki və dəqiqə əldə edərək Azərbaycanın ən sürətli mobil şəbəkəsinin üstünlüklərindən daha sərfəli şərtlərlə yararlanacaqlar. Yenilənmiş "Klass" tarifləri yerli bazarın ən sərfəli və rahat təkliflərindən biridir", deyə Bakcell şirkətinin baş kommersiya direktoru Reinhard Zuba bildirib.

Qeyd edək ki, bütün Klass tariflərində limitsiz WhatsApp yazışması (yalnız mətn) pulsuzdur. "Klass 50" paketinin istifadəçiləri isə "WhatsApp"dan pulsuz və limitsiz olaraq istifadə etmək imkanına malikdirlər. Bakcell şirkəti məhsul və xidmətlərinin keyfiyyətini daim inkişaf etdirərək abunəçilərinə daha yaxşı müştəri təcrübəsi təqdim edir. Ölkədə ən geniş əhatə dairəsinə malik olan, tanınmış OOKLA şirkəti tərəfindən ardıcıl olaraq 3 dəfə "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülən Bakcell şəbəkəsi bunun üçün bütün texniki imkanlara malikdir.

## Şuşada əlbəyaxa döyüş zamanı 40-dan çox erməni hərbçisini məhv edən şəhidimiz Elxan Hüseynov



Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun ən çox fərqlənən və düşmənin canına qorxu salan birliklərimizdən biri də Xüsusi Təyinatlı Qüvvələr oldu. Xüsusi təyinatlılarımız 44 günlük Vətən müharibəsində göstərdikləri əsl qəhrəmanlıq və peşəkarlıq nümunələri ilə adlarını təkcə Azərbaycanın deyil, dünya hərb tarixinə də əsl rəşadət örnəyi kimi yazdırdılar. Müharibədə ən çətin əməliyyatlara cəlb olunan və bütün döyüşlərdən üzüağ çıxan xüsusi təyinatlılarımızın sıralarından neçə-neçə igidimiz Vətən uğrunda son damla qanına qədər döyüşərək şəhidlik zirvəsinə ucaldı. Belə igidlərimizdən biri də şəhid Elxan Hüseynovdur. Otuz yeddi gün komada qalan Elxan ötən gün haqqın dərgahına qovuşub.

AZƏRTAC xəbər verir ki, Elxan Maarif oğlu Hüseynov 2000-ci il martın 12-də Cəbrayıl rayonundan olan məcburi köçkünlər üçün Biləsuvar rayon ərazisində salınan şəhərcikdə dünyaya gəlib. Ata-baba yurdunun həsrəti ilə yaşayan Elxan hərbçi olmağı qarşısına məqsəd qoyub. O, həqiqi hərbi xidməti bitirdikdən sonra müddətli hərbi xidmətini davam etdirib. Elxanın peşəkarlığı, idmançı olması onun xüsusi təyinatlılarda xidmət etməsinə yol açdı.

Şəhidin anası Könül Xəlilova Elxan kimi övladının olması ilə fəxr etdiyini bildirib: "O, hər zaman deyərdi ki, böyüyüb torpaqlarımızın azad edilməsində iştirak edəcəyəm. Arzusuna da çatdı, Şuşaya qədər bütün döyüşlərdə iştirak etdi. Noyabrın 6-da yaralanan Elxanı hospitala apardılar. Bir neçə gün ərzində ondan xəbər ala bilmədik. Biz onu tapanda xəstəxanada komada idi. Həkim mənə oğlumun adını çağırmağımı dedi. O, komanda olsa belə səsimi eşidəndə əlimi sıxdı və "qardaşın Orxan gəlib" dedim. Onda isə əlini qaldırdı. Elxan 37 gün komada qaldıqdan sonra şəhidlik zirvəsinə ucaldı. Döyüşlər zamanı da imkan tapdıqca bizimlə əlaqə saxlayırdı. Bir dəfə zəng etdi ki, ata-baba yurdumuzu azad etmişik, Xudafərin azaddır, xəbərlərə baxarsınız. Onun ən ülvi arzusu torpaqlarımızın işğaldan azad olunmasını görmək idi. Elxan torpaqlarımızı görməklə yanaşı, bizim də 27 illik həsrətimizə son qoydu və biz doğma yurdumuzun azad edilməsinin sevincini yaşayırıq".

Şəhidin atası Marif Hüseynov deyir ki, Elxan sanki kəşfiyyatçı olmaq üçün dünyaya gəlmişdi: "Mənimlə məsləhətləşəndə bu arzusunu söylədi, mən razı olmasam da, təkidlə öz yolunu davam etdirdi. Onun döyüş yolu azad olunan bütün ərazilərimizdən keçib. Çünki onlar xüsusi təyinatlılardır. Onlar qəhrəmancasına döyüşərək torpaqlarımızı azad etdilər. Elxan Şuşa uğrunda əlbəyaxa döyüşlərdə mübarizə aparanlardan biridir. Təkcə Elxan 40-dan çox ermənini əlbəyaxa döyüşdə məhv edib. Noyabrın 6-da düşmən gülləsinə tuş gələrək yaralanıb. Onu döyüş meydanından təxliyə edən təcili yardım maşını isə minaya düşüb. Yenidən yaralanan Elxanı tapanda onun şəhid olduğunu düşünüblər. İki dəfə əməliyyat olunmasına baxmayaraq, onun həyatını xilas etmək mümkün olmadı, Elxan ötən gün şəhidlik zirvəsinə ucaldı".

Şəhidin Vətən müharibəsinə könüllü yollanan böyük qardaşı Orxan Hüseynov qardaşı ilə bağlı danışarkən deyib: "Mən qardaşımla fəxr edirəm. Onlar ən öndə gedən qəhrəmanlarımızdır. Qismət belə gətirdi ki, mən qardaşımla heç zaman görmədiyimiz Cəbrayıl torpağında görüşdüm. Gülərək dedi ki, əmimin qisasını aldım. Mən də ona cavab verdim ki, mən də qisasımızı almışam. Bu, bizim sonuncu görüşümüz oldu. Telefonda sonuncu dəfə danışanda mənə dedi ki, Şuşaya əlbəyaxa döyüşlərə gedirik. O, təkcə əlbəyaxa döyüşdə 40-50 ermənini məhv edib. Vətən keşiyində dayanmaq və şəhid qardaşı olmaq həm qürurlu, həm də məsuliyyətlidir".

Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan uğrunda döyüşlərdə iştirak edən Orxan deyib ki, biz Şuşaya qardaşımgilin dəstəsindən sonra girdik və bu gün də qardaşım və bütün şəhidlərimizin bizə əmanət etdiyi torpaqlarımızın keşiyindəyik.

## Şəhid atası: Fəxr edirəm ki, Böyük Qələbənin qazanılmasında oğlum Fuad Nəcəfovun da payı var



Vətən sevgisi qanla keçir. Ağlım kəsəndə atamın Qarabağ itkisindən əzab çəkdiyini görürdüm. O, birinci Qarabağ müharibəsinin igid döyüşçülərindən olub. Göstərdiyi şücaətlərə görə 1996-cı ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunub. Sentyabrın 27-də Vətən müharibəsi başlayanda atam "Get Fuad, torpaqlarımızı erməni işğalçılarından azad et. Mən buna tam əminəm. Çünki bugünkü Azərbaycan ovaxtkı deyil" dedi.

AZƏRTAC-ın bölgə müxbiri bildirir ki, bu sətirləri Vətən müharibəsində xüsusi təyinatlı qüvvələrin tərkibində döyüşən və şəhidlik zirvəsinə ucalan Fuad Nəcəfov öz dostlarına, döyüş yoldaşlarına danışardı.

Fuad 1990-cı ildə İsmayıllı rayonunun Qalınçaq kəndində anadan olub. 2008-ci ildə həqiqi hərbi xidmətini başa vurduqdan sonra gizirlik, sonra isə xüsusi təyinatlıların hazırlanması kurslarında iştirak edib və əsl hərbçi kimi yetişib. Vətən müharibəsinin ilk günlərindən peşəkar hərbçi kimi döyüşlərə atılıb. Düşmənin 28 tankının ələ keçirilməsində, 30-dan çox texnikasının məhv edilməsində onun xüsusi rolu olub. Məhz bu cəsurluğuna görə azad olunan Suqovuşan qəsəbəsində üçrəngli bayrağımızın qaldırılması ona həvalə edilib.

Fuad Nəcəfov Füzuli, Cəbrayıl, Qubadlı rayonlarının azad olunmasında fəal iştirak edib və əsl qəhrəmanlıq nümunələri göstərib. Oktyabrın 7-də Zəngilanın azad olunması uğrunda əməliyyata gedərkən qəhrəmancasına şəhid olub. Fuad Nəcəfov ölümündən sonra "Qarabağ" ordeni ilə təltif olunub. İndi Nəcəfovlar ailəsi üçün Fuaddan bir qız övladı yadigar qalıb.

Şəhidin atası, birinci Qarabağ müharibəsinin qəhrəman əsgəri Taleh Nəcəfov oğlu ilə qürur duyduğunu qeyd edərək bildirib: "O, Vətən müharibəsində qəhrəman kimi döyüşüb. Qarabağımızın azad olunmasında Silahlı Qüvvələrimizin sıralarında igidliklə vuruşub. Hələ müharibənin ilk günlərində Fuadla danışanda "Əmin ol, Ermənistan ordusu torpaqlarımızdan tezliklə qovulacaq" deyirdi. Şükürlər olsun ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qısa müddətdə - cəmi 44 gündə qələbə çaldıq. Dekabrın 10-da keçirilmiş Zəfər paradını izləyərkən sonsuz qürur hissi keçirdim. Bir daha fəxr etdim ki, Böyük Qələbənin qazanılmasında minlərlə Vətən övladı kimi, oğlum Fuadın da payı var".

## Uşaqların tibbi maskadan istifadəsi zəruridirmi?- ÜST açıqladı



Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı pandemiya şəraitində uşaqların tibbi maskadan istifadəsinin zəruri olub-olmadığı ilə bağlı məsələyə aydınlıq gətirib. SİA xəbər verir ki, H.Harmancı açıqlamasında bildirib ki, ÜST tərəfindən bir araya gətirilən beynəlxalq ekspert qrupu uşaqlarda COVID-19 xəstəliyi və yoluxması ilə bağlı dəlilləri, uşaqların maskadan istifadəsinə dair məhdud sübutları nəzərdən keçirib. Uşaqların psixososial ehtiyacları və inkişaf mərhələləri kimi amillərə əsasən ÜST və UNİCEF tövsiyə edir ki, 5 yaşa qədər uşaqlardan maskadan istifadə etmək tələb olunmamalıdır. Bu, uşağın təhlükəsizliyinə və ümumi marağına, eləcə də minimum yardımla maskadan ??istifadə etmə qabiliyyətinə əsasən verilən qərardır.

H.Harmancı əlavə edib ki, ÜST və UNİCEF 6-11 yaş arası uşaqlar üçün maskadan istifadə qərarının bir sıra amillərə əsaslanmasını tövsiyə edir.

Həmin amilləri sadalayan ÜST rəsmisi qeyd edib ki, bunlar uşağın yaşadığı ərazidə virusun geniş yayılıb-yayılmaması, uşağın təhlükəsiz və düzgün şəkildə maskadan ??istifadə etmə qabiliyyəti, maskalara əlçatanlıq, habelə müəyyən yerlərdə maskaların yuyulması və dəyişdirilməsi (məktəblər və uşaq baxımı xidmətləri kimi), maska taxmaq, çıxarmaq və təhlükəsiz istifadə etmək üçün uşağa yetişkin tərəfindən nəzarət və təlimat, müəllimlər, valideynlər/baxıcılar və/və ya tibb işçiləri ilə məsləhətləşərək maska ??taxmağın öyrənmə və psixososial inkişafa potensial təsirini müəyyənləşdirmə, uşağın ciddi xəstəliklərə tutulma riski yüksək olan yaşlılar və yanaşı xəstəliyi olan şəxslərlə ünsiyyəti və düşdüyü şəraitdir. H.Harmancı ÜST-nin əhaliyə həmişə yerli rəsmi qurumların tövsiyələrinə əməl etməyi tövsiyə etdiyini də vurğulayıb.

## Vazgen Manukyanın xəstə təfəkkürü: baş nazir olarsa...



***Ermənistan müxalifətinin "Vətənin xilası naminə hərəkat"nın vahid namizədi Vazgen Manukyan mədəniyyət xadimləri və ziyalılarla görüşü zamanı İrəvanda və Qarabağda kimlərin və nəyə görə Rusiya bazalarının çıxarılması tələbi irəli sürmələri barədə danışıb.***

"Əgər əvvəllər təhlükəsizliyimizin qarantı bizim ordumuz və müttəfiqlərimizlə razılaşmalar idisə, artıq indi əsas qarant rus sülhməramlılarıdır", deyən Manukyan.

Sərsəm düşüncə: "Kimsə küçəyə çıxmaqla rus bazalarına qarşı çıxış edirsə, bu anti-Rusiya məqsədli köklənmə deyil"

İrəvanda və Qarabağda rus bazalarının çıxarılmasını tələb edən aksiyaların keçirilməsini və irəli sürülən tələbləri anlamadığını deyib, lakin elə onun bu fikirləri də əslində anlaşılmazdır. SİTAT: "İctimaiyyətdə tarix ətrafında mübahisələr yarana bilər, ancaq kimsə küçəyə çıxmaqla rus bazalarına qarşı çıxış edirsə, bu anti-Rusiya məqsədli köklənmə deyil".

Buradan da göründüyü kimi, Manukyan bəlkə də özü də bilmədən erməniçilik xəstəliyinin tələb etdiyi ifadəni məhz erməni həyasızlığı ilə aşkara çıxarıb. Daha dəqiq desək, onun Rusiya hərbçilərinə qarşı çıxanların anti-Rusiya məqsədi daşımadığını deməsi də bu həyasızlığı açıq-aşkar nümayiş etdirir.

"Qarabağda və Ermənistan sərhədlərində müharibənin bitmədiyi şəraitdə insanlar anlamadan Türkiyə ilə münasibətlərin qurulmasından danışırlar"

Digər tərəfdən, erməni müxalifətinin lideri hesab edir ki, bu kimi aksiyalar Rusiyanın təsirini azaltmaq məqsədini güdən xarici güclər tərəfindən maliyyələşir, bu isə ən çox Türkiyənin əlinə oynayır. Manukyan hesab edir ki, müharibə bitməyib və bu xüsusda Türkiyə və İranla, digər ölkələrlə münasibətlərin qurulmasını müzakirə etmək lazımdır.

"Qarabağda və Ermənistan sərhədlərində müharibənin bitmədiyi şəraitdə insanlar anlamadan Türkiyə ilə münasibətlərin qurulmasından danışırlar ki, bu da baş verərsə bizim üçün ikinci kapitulyasiya aktına çevrilə bilər", deyə əslində Manukyan ucuz, xəstə erməni təfəkkürü və bəyanatı ilə Paşinyanı devirib, baş nazir seçiləcəyi halda Ermənistanı daha ağır uçuruma doğru sürükləyəcəyi anonsunu verdi.

***Rövşən RƏSULOV***

## Artur Vanesyan: "Paşinyanla yalnız istefa müzakirəsi şərtilə görüşərəm"



"Vətən" partiyasının sədri Artur Vanesyan "Mənim addımım" fraksiyasının deputatları ilə dialoqa hazırdır. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu şəxsən Artur Vanesyan özü deyib. "Mən öz adımdan və "Vətən" partiyası adından danışıram. Fraksiya deputatlarından və ya parlamentin sədrindən təklif alınarsa, təklifi qəbul edərəm və ölkəmizin gələcəyindən danışacağam", deyə "Vətən" partiyasının sədri söyləyib.

Artur Vanesyan "Mənim addımım" fraksiyasının baş nazirliyə başqa bir namizədinin ola biləcəyinə razı olub-olmadığı şərhinə, "Xeyr, mən belə bir açıqlama verməmişəm", cavabını verib. Nikol Paşinyana gəlincə, Artur Vanesyan onunla yalnız bir məsələni, istefa məsələsi şərtlərini müzakirə etmək üçün görüşə biləcəyini qeyd edib.

# Azərbaycan yeni reallıq yaratdı, Ermənistan...

## Prezident İlham Əliyev: "Ermənistan məğlub edilmiş ölkədir, Azərbaycan zəfər çalmış ölkədir"



***"Mən ilk günlərdən deyirdim ki, bu məsələ öz həllini hərbi, siyasi yollarla tapmalıdır. Deyirdim ki, biz məsələnin hərbi yollarla həllini hər an dayandıra bilərik və buna hazırıq. Bir şərtlə, Paşinyan şəxsən özü deməlidir ki, nə vaxt o, bizim torpaqlarımızdan çıxır. Öhdəlik götürməlidir, tarix verməlidir. Deməlidir ki, nə vaxt bizim torpaqlarımızdan çıxır. Bu olan kimi, mən bizim hücum əməliyyatlarımızı dayandırıram". Prezident İlham Əliyev bu barədə xalqa müraciətində müharibənin nəticələrindən danışarkən bildirib: "O, artıq cəzasını alıb.***

Halbuki o vaxt o, 7 şərti bizə irəli sürəndə demişəm: Mənim bir şərtim var, - sənin yeddi şərtini zibil yeşiyinə atıram, - rədd ol, çıx get torpağımızdan. Öz xoşunla çıx get. Əgər qulaq assaydı, bu rəzil vəziyyətə düşməzdi", - deyə dövlətimizin başçısı qeyd edərəe bildirib: "Müharibənin nəticələri də mən deyən kimi oldu. Biz Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Murovdağı, Suqovuşanı, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı hərbi yollarla azad etdik. Döyüş meydanında düşmənin belini qırdıq. Şuşanın azad olunmasından bir gün sonra 70-dən çox kəndin azad edilməsi ilə düşmən diz çökdü, kapitulyasiya aktına imza atdı".

Azərbaycan Prezidenti: "Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir. Kəlbəcər bizimdir! Qarabağ Azərbaycandır!"

### 44 gündə Ermənistan Ordusunun "məğlubedilməzlik" mifi dağıdıldı

Bəli, sentyabrın 27-də Ermənistanın törətdiyi təxribata atekvat cavabı olaraq ın Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canıqanı bahasına Ermənistan Ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Sübut edildi ki, Azərbaycanın razılığı olmadan Dağlıq Qarabağla bağlı heç bir qərar qəbul edilə bilməz.

### Azərbaycan Prezidenti "status-kvo"nu dəyişdi və bu gün münaqişənin həlli şərtlərini indi Azərbaycan diktə edir

Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş nazirinin birgə bəyanat Azərbaycanın qalib, Ermənistanın kapitulyasiya aktıdır. Azərbaycan Prezidenti bundan əvvəl də bəyan etmişdi ki, Ermənistan Ağdam, Kəlbəcər və Laçından öz qoşunlarını çıxaracağı təqdirdə, Azərbaycan hərbi əməliyyatları dayandırmağa hazırdır. Ali Baş Komandan İlham Əliyevin israrlı mövqeyi nəticəsində məğlub və çıxılmaz vəziyyətə düşən Ermənistan rəhbərliyi işğal edilmiş bütün torpaqlarımızdan qeyd-şərtsiz çıxmaq və bunun üçün çıxış qrafikini təqdim etməyə məcbur olmuşdur. Paşinyan bəyanatı gizlincə imzalayıb.

Azərbaycan həm döyüş meydanında, həm danışıqlar masası arxasında istədiyinə nail olub. Sentyabrın 27-dən başlanmış və noyabrın 10-da başa çatmış hərbi mərhələ sübut etdi ki, Ermənistan hakimiyyəti məntiqli, rasional düşüncəyə malik deyil, onlar erməni xalqının yox, sırf xarici qüvvələrin maraqlarına xidmət edirlər.

Qondarma rejimin Prezidenti Araik Harutyunyan da etiraf edib ki, hələ müharibənin ilk həftələrində cənub istiqamətində çətin vəziyyətdə olarkən Ermənistan və Qarabağ Milli Təhlükəsizlik Xidmətinin xüsusi təyinatlıların döyüşə getməkdən imtina etdiyini, əsgərləri postlarda və ön xətlərdə vaxtında dəyişməyin mümkün olmadığını qeyd edib: "Fərariliyin qarşısını almaq mümkün olmayıb, Ermənistandan gələn könüllülərin böyük əksəriyyəti əsgər forması geyindikdən sonra şelfi çəkməklə yetiniblər, ön cəbhəyə getməkdən imtina ediblər. Qarabağlı əsgər və zabitlər və Ermənistandan gələn əsgər və zabitlər arasında ciddi problemlər yaşanıb. Qarabağlı əsgər və zabitlər Ermənistandan gələn zabitlərin əmr və göstərişlərinə tabe olmayıblar, hətta onlar arasında silahlı konfliktlər də yaşanıb. Ermənilər xarici siyasətdə də iflas etdiklərini anlayırlar. Elə bu biabırçı məğlubiyyətdən sonra Ermənistan ordusunda yüksək rütbəli zabitlərin əksəriyyəti istefa verib".

### Prezident İlham Əliyev: "Haqlı olmağımızı döyüş meydanında sübut edirik"

"Hesab edirəm ki, İtaliya münaqişənin nizamlanması işində çox mühüm rol oynaya bilər. Qeyd etməliyəm ki, Minsk qrupu yaradılan vaxt, çoxdan, təqribən 30 il bundan əvvəl bu Minsk qrupunun rəhbəri məhz İtaliya nümayəndəsi, italiyalı diplomat idi. Bu, həmsədrlər təsisatı yaradılandan əvvəl idi". Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da İtaliyanın Rai-1 televiziya kanalına müsahibəsində deyib.

"Həmsədrlər təsisatı yaradılandan sonra Minsk qrupu, əslində, ölkələr qrupu kimi heç bir fəaliyyət göstərməyib, çünki həmsədrlər bu fəaliyyəti özlərinin inhisarına götürüblər. Bunun nəyə gətirib çıxardığını görürük. 28 il ərzində heç bir irəliləyiş olmayıb, heç bir nəticə yoxdur, yalnız vədlər, yalnız bürokratik prosedurlar var və bu gün bizə belə gəlir ki, əslində, həmsədrlərin fəaliyyəti münaqişənin həllinə deyil, onun dondurulmasına yönəlmişdi. İtaliyada mövcud olan modelə gəldikdə isə biz onu öyrənmişik. Biz Aland adaları modelini, muxtar qurumların digər uğurlu təcrübələrini də öyrənmişik. Ermənistandan fərqli olaraq, Azərbaycan çoxmillətli dövlətdir. Yəqin siz bilirsiniz, Ermənistanda əhalinin 99 faizi ermənilərdir. Buna görə çox müsbət olan bu özünüidarə təcrübəsi bizim halda da tətbiq edilə bilərdi. Yeri gəlmişkən, mənim bildiyimə görə 1990-cı illərin ortalarında bu cür təkliflər olub. Hətta qeyri-hökumət təşkilatlarının nümayəndələrindən, politoloqlardan ibarət qruplar sizin ölkəyə də, haqqında danışdığınız regiona da, Aland adalarına da səfər edirdilər. Lakin Ermənistan bunu həmişə qəti surətdə rədd edirdi. Onlar hesab edirdilər ki, dünyanın aparıcı ölkələrinin hərbi, siyasi, iqtisadi dəstəyinə güvənərək bizim əraziləri əbədi işğal edə biləcəklər, lakin onlar kobud səhv edirdilər. Bu gün biz özümüzün haqlı olmağımızı döyüş meydanında sübut edirik. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini həyata keçiririk və beynəlxalq hüququ bərpa edirik", deyə dövlət başçısı bildirib.

Prezident İlham Əliyevin vurğuladığı kimi, biz öz torpağımızda vuruşuruq və qələbə bizimlədir. Və bu gün artıq Azərbaycan haqqın, ədalətin, ərvazi bütövlüyünün bərpasına nail oldu. 30 illik əsarət altında olan torpaqlarımızın əzadlığına son qoyuldu. Deyir, dünyanın istənilən nöqtəsində baş verən müharibədə qələbənin təmin olunması üçün bir neçə vacib tələblər var: düşünən beyin və vuran əllərdən ibarət canlı qüvvə, müasir texniki imkanlar, davamlı hərbi təminat və əhval ruhiyyə. Bu tələblər təmin olunursa, döyüş meydanında uğur mütləq təmin edilir. Müzəffər Azərbaycan Ordusunda bunların hamısı var. Əlbəttə ki, bütün bu prosesə, zəfər yürüşünə peşəkarlıqla liderlik edən Ali Baş Komandandır. Nəticə göz önündədir. Bunun da təməlində qələbəyə inanan, uzun illərdir intizarında olduğumuz Böyük Zəfərin əldə edilməsi üçün dövlətimizə, rəşadətli Ordumuza, Ali Baş Komandanımıza dəstək verən xalqımızın böyük ruh yüksəkliyi, milli vəhdəti dayanır. Çünki bizim mübarizəmiz haqq, ədalət mübarizəsidir və öz torpaqlarımızda öz torpaqlarımız uğrunda mcadilə aparırıq.

Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev cənabları da bütün çıxışlarında, müsahibələrində, görüşlərində demişdir: "Biz haqq yolundayıq, ədalət yolundayıq. Biz haqlıyıq, biz öz torpağımızda vuruşuruq, öz torpağımızda şəhidlər veririk. Bizim savaşımız müqəddəs savaşdır! Biz döyüş meydanında gücümüzü göstərdik, həm düşmənə, həm də bütün dünyaya. Döyüş meydanında göstərdiyimiz güc və onun mənbəyi Azərbaycan xalqının iradəsidir, Azərbaycan xalqının istedadıdır və bizim əldə etdiyimiz uğurlardır. Bir daha demək istəyirəm ki, biz xoşbəxt insanıq, bizim nəslimiz xoşbəxtdir ki, bu sevincli günləri görə bilirik. Mən özümü xoşbəxt insan hesab edirəm ki, bu sevincli xəbərləri doğma xalqıma çatdırıram. Ali Baş Komandan kimi bütün işlərə rəhbərlik edirəm və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da öz fəaliyyətimdə ölkəmizin, xalqımızın milli maraqlarını qorumaq üçün əlimdən gələni əsirgəməyəcəyəm. Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, öz ərazi bütövlüyümüzü bərpa edirik.

Yaşasın Azərbaycan Ordusu! Yaşasın Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!"

**RƏFİQƏ HÜSEYNOVA**

## "Sülhməramlıların öz vəzifə səlahiyyətlərini aşmağa ixtiyarları yoxdur"



"Rusiya sülhməramlıları onlara məxsus olan öz funksiyalarını yerinə yetirməlidir və onların vəzifələri imzalanan bəyanatda açıq şəkildə əks olunur. Sülhməramlıların öz vəzifə səlahiyyətlərini aşmağa, hansısa xərtiəni tərtib etməyə, hansısa bir rəqəmləri və dislokasiya yerlərini dəyişdirməyə heç bir ixtiyarları yoxdur". Bunu SİA-ya açıqlamasında politoloq Fikrət Sadıqov deyib. Politoloqun sözlərinə görə, əgər Rusiya dövlət başçısı bu sənədi imzalayıbsa, sülhməramlılar hansı hüquqa əsasən bunu edirlər? "Aydın məsələdir ki, Rusiya uzun illər ermənilərə dəstək verməkk üçün çalışıb. Amma bu gün Cənubi Qafqazda geosiyasi vəziyyət dəyişib. Azərbaycan öz torpaqlarını azad edib. Bizim öz torpaqlarımızda hər hansı bir düzəlişlər etmək və xəritəyə yeni dəyişikliklər etmək həm bizim Azərbaycan maraqlarına ziddir, eyni zamanda Azərbaycan-Rusiya münasibətlərinə müəyyən dərəcədə zərbədir".

F.Sadıqov vurğulayıb ki, həm Azərbaycanın Xarici İşlər Nazirliyi, həm də Müdafiə Nazirliyimiz bu məsələyə kəskin reaksiya verəcək və verməlidir: "Bu məsələyə qarşı biz özümüz vətəndaş cəmiyyəti olaraq da çıxış etməliyik. Bu o deməkdir ki, yaranmış real vəziyyəti anlamağa sülhməramlıların ya qabiliyyəti çatmır, ya da bu məsələlərin nəticələrini axıra qədər dərk etmirlər. Yaxud da bunu qəsdən edirlər. Qəsdən edirlərsə, onda gərək biz Rusiya rəhbərliyinə öz etirazımızı bildirək".

***Aysel Məmmədova***

## "South China Morning Post": Qarabağ müharibəsi XXI əsrin savaşının əvvəlkilərdən fərqli olduğunu göstərdi



Honkonqda yayımlanan "South China Morning Post" qəzetində dərc olunan məqalədə Azərbaycan Ordusunun 44 gün davam edən Vətən müharibəsində pilotsuz uçuş aparatlarından (PUA) olduqca səmərəli istifadəsindən danışılıb.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Ordusunun PUA-lar vasitəsilə Ermənistan silahlı qüvvələrinə ciddi zərbələr endirməklə döyüş meydanında böyük uğurlar qazanmasından bir çox ölkənin dərs almalı olduğu bildirilib. Qeyd edilib ki, Ermənistan tərəfinin tankları, zirehli texnikaları, radar sistemləri və səngərləri Azərbaycanın hərbi dronları üçün ov oldular. Azərbaycan PUA-larının lentə aldığı videogörüntülərdə erməni əsgərlərinin yerinin dəqiqləşdirildiyi və hədəfə alındığı görünür, bundan başqa, dronlar kəşfiyyat əməliyyatlarında da istifadə olunub. Ümumilikdə bütün bunlar Azərbaycana cəmi altı həftəyə Ermənistanı təslim olmasını təmin etməyə imkan verdi.

Bildirilib ki, Ermənistanın siyasi və hərbi rəhbərliyi dronlara qarşı lazımi texnoloji cavab tədbirlərini görə bilməyib. Qarabağdakı savaşda PUA-ların səmərəli istifadəsi XXI əsrin müharibəsinin əvvəlkilərdən fərqli olduğunu göstərdi. Ona görə də artıq bir çox ölkə ordusunun silahlanmasında və müdafiənin təşkilində bu amili nəzərə almalıdır.

TƏRS BAXIŞ

# Rusiya sülhməramlıları: əvvəlinci gündən bəlli olan nə idi?

*Yaxud, Qarabağ Abxaziya, Cənubi Osetiya, ya da Dnestryanı deyil, Qarabağ Azərbaycandır!*



***Son günlər Rusiya sülhməramlılarının Qarabağdakı fəaliyyətləri ətrafında səslənən fikir və mülahizələr, əslində, ortaya çıxan təəssüfedici faktların səsidir. Belə ki, Azərbaycanın müzəffər Ordusunun Qarabağımızın işğaldan azad olunması istiqamətində 44 günlük qəhrəmanlıq salnamələri yazmasının ardınca, hadisələrin məcrasının dəyişməsi, daha dəqiq desək, qalib tərəfin məhz Azərbaycanın olması danılmaz faktdır.***

Xüsusilə, noyabrın 10-da baş tutan və dünyaya öz möhtəşəmliyi ilə səs salan Zəfər paradı, bu paradda hər zaman yanımızda olan qardaş Türkiyə hərbçilərinin də addımlaması, eləcə də Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın da iştirakı, çıxış və bəyanatı həm də dünyaya verilən bir mesaj oldu. Azərbaycan Prezidenti İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın regionda vahid güc mərkəzinə çevirilməsi faktoru isə əlbəttə ki, bir sıra dairələri, o cümlədən dünyanın müxtəlif bölgələrində Türkiyə ilə müəyyən maraqlarının üst-üstə düşdüyü Rusiyanı nədənsə qıcıqlandırdı. Halbuki Qarabağda Azərbaycanın qələbəsi ilə nəticələnən qətiyyətli addımlarının ardınca Rusiya atəşkəs bəyannaməsinin əldə edilməsində müəyyən rolunu oynadı. Bunu dövlətimizin başçısı İlham Əliyev də ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etdiyi zaman vurğuladı.

**Hələ ötən ayda - noyabrın 18-də "Ekoloji terrora dərhal son qoyulmalıdır!" sərlövhəli analitik yazımızda Rusiya sülhməramlılarının Kəlbəcərdəki etinasızlıqlarından bəhs etmişdik**

Lakin indiki məqamda noyabrın 10-da imzalanmış bəyannamədəki bir sıra tələblərin pozulması hallarının aşkara çıxmasının da səbəbkarlarının Qarabağa göndərilmiş Rusiya sülhməramlılarının olması dəlilləri üzə çıxdıqca bizə ən yumşaq halda təəssüflənmək qalır!

Məsələn, SİA olaraq hələ ötən ayda - noyabrın 18-də "Ekoloji terrora dərhal son qoyulmalıdır!" sərlövhəli analitik yazı ilə çıxış etmişdik və həmin yazıda Kəlbəcərdən çıxmağa hazırlaşan ermənilərin meşələri qırmaları, evlərə və təbiətə zərər vurmaları barədə bəhs etməyimizlə yanaşı, Rusiya sülhməramlılarının baş verənlərə biganə yanaşmalarını da xüsusi olaraq vurğulamışdıq. Aşağıdakı linkə toxunmaqla bir daha həmin analitik məqaləni oxuya bilərsiniz. https://sia.az/az/news/politics/838191.html

Rusiyanın Qarabağda və digər müəyyən olunmuş ərazilərdə qurduqları nəzarət-buraxılış məntəqələrindəki işlərindən əlavə olaraq bəyannamədə göstərilməyən işlərə müdaxilə etmələri istər-istəməz Azərbaycan cəmiyyətində narazılıqlar, hətta hiddətlər doğurmaqdadır. Yəqin ki, Rusiya sülhməramlıları Qarabağı Abxaziya, Cənubi Osetiya, ya da Dnestryanı ilə səhv salırlar, yaxud düşünürlər ki, oralarda etdiklərini Azərbaycan ərazisində də edə biləcəklər. Amma təbii ki, yanılırlar və onların açıq-aşkar separatçılara "humanitar" məqsədli yanaşma tərzləri həqiqətən də ictimaiyyəti düşünməyə vadar edir.

**Rusiya sülhməramlılarının rəhbərliyi Xankəndinə çatar-çatmaz Qarabağda baş vermiş hərbi əməliyyatlar zamanı cinayətkar, terrorçu silahlılara rəhbərlik edən Araik Arutunyanla görüş keçirdi**

Məsələn, bəllidir ki, Rusiya sülhməramlılarının rəhbərliyi Xankəndinə çatar-çatmaz Qarabağda baş vermiş hərbi əməliyyatlar zamanı cinayətkar, terrorçu silahlılara rəhbərlik edən Araik Arutunyanla görüş keçirdi (?!). Üstəlik, həmin görüşdə heç bir dünya ölkələri tərəfindən tanınmayan "dqr"in əski parçası görüntüləndi. Halbuki, Araik Arutunyan Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən axtarışa verilib və barəsində bir sıra maddələrlə cinayət işi açılıb.

Yaxud, sülhməramlılar yalnız Xankəndi və ətrafını, eləcə də yerləşdikləri Laçın dəhlizinin ətrafını minalardan təmizləyirlər. Maraqlıdır, məgər onların qarşılarına qoyulan minatəmizləmə əməliyyatı yalnız o tərəflərəmi aiddir?

**Bəyannamədə razılaşdırılmamış Xankəndi hava limanı məsələsi haradan çıxdı?**

Eləcə də, bugünlərdə məlum olub ki, ruslar Xankəndidə "humanitar" məqsədli yük təyyarələrini endirmək üçün orada fəaliyyətdə olmayan hava limanını işlək vəziyyətə gətirmək üçün planlar tərtib edirlər. Halbuki, əvvəldən də məlum olmuşdu ki, humanitar yüklər və texnikalar həm Azərbaycanın ərazisindən keçərək Xankəndinə daşınacaq, həm də İrəvana hava yolu ilə daşınıb, sonradan quru yolu vasitəsi ilə ünvanına çatdırılacaq. Bu zaman bəyannamədə razılaşdırılmamış hava limanı məsələsi haradan çıxdı?

Bu kimi faktlar kifayət qədərdir, hətta o qədər çoxalmağa başlayıb ki, artıq bu kimi hərəkətlərə mütləq şəkildə cavab verməyin zamanı çatıb. Biz Rusiyalı sülhməramlı korpusunun rəhbərliyinə sual edə bilərik ki, Qarabağda yaşayan və hərbi əməliyyatlar zamanı Ermənistan ərazisinə keçən erməni mülki şəxslərin kütləvi şəkildə geri qaytarılmasının arxasında hansı maraqlar dayanır? Axı bildiyimiz qədər həmin ərazilərə yalnız 1989-cu ilə qədər qeydiyyatda olanların və onların ailə üzvlərinin geri qaytarılması göstərilir! Elədirsə, rus sülhməramlıları arxiv sənədlərini incələməmiş, Azərbaycan rəhbərliyi ilə məsləhətləşməmiş, əllərində heç bir dəlil-sübut olmamış bu prosesi necə və nə üçün həyata keçirirlər?! Bəlkə onların içində suriyalı, livanlı erməni terrorçuların da geri qayıdırlar ki, sonradan öz silahlı təxribatlarını davam etdirsinlər?! Ola bilməzmi? Əlbəttə ki, ola bilər!

**Gündə tərtib etdikləri anlamsız xəritələrində qıcıqlandırıcı "postlarını" etdirməklə nə demək istəyirlər?**

Hadrutda, Şuşa ətrafındakı kəndlərdə və s. işğaldan azad olunmuş ərazilərimizdə erməni silahlılarının qalmaları barədə məlumatlar üzə çıxandan sonra DTX-nın xüsusi dəstələri dərhal anti-terror əməliyyatı həyata keçirərək, hərbçilərimzə, mülkilərimizə atəş açmış, yaralamış və şəhid etmiş erməni yaraqlılarının bir hissəsini məhv etdilər, əsir götürülənlər də oldu. Məhz bu əməliyyatlar başlayar-başlamaz Rusiyanın sülhməramlıları dərhal özlərini hadisə yerinə çatdıraraq müvəqqəti nəzarət postları qurdular (?!) Məqsəd nədir? Azərbaycan Ordusu üzərinə düşən vəzifəsini həyata keçirirsə, rusların o ərazilərdə nə işləri var? Hansı maraqlar onları bu ərazilərə cəlb etdi? Yaxud, gündə tərtib etdikləri anlamsız xəritələrində qıcıqlandırıcı "postlarını" nümayiş etdirməklə nə demək istəyirlər? Əlbəttə, bütün bu sualların cavablarını tapmalıdır və izahatı da tələb olunmalıdır!

Əgər Rusiya sülhməramlıları müttəfiqləri Ermənistanın məğlub vəziyyətinə hər hansı siyasi, hərbi dəstək göstərmək istəyirlərsə, bunu Gümrüdəki bazalarında edə bilərlər, amma Qarabağda bunu etməyə nə haqları, nə də hüquqları var. Yox, əgər belə davam edəcəksə, bu zaman Azərbaycan bütün beynəlxalq hüquqlarından istifadə edərək, Qarabağdakı separatçılıq meyillərini tam yox edənə qədər öz qətiyyətli sözünü deyəcək və buna da qadirdir, ona görə ki, nə küçədə 90-cı illərdir, nə də Qarabağ Abxaziya, Cənubi Osetiya, ya da Dnestryanı deyil, Qarabağ Azərbaycandır!

***Rövşən RƏSULOV***

## "Həmsədrlər Ermənistanın yenidən sabitliyi pozmasına ciddi nəzarət etməlidir"



"Prezident İlham Əliyevin çıxışı təkcə 44 günlük müharibənin deyil, ümumilikdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinin, bu prosesdə ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətinin qiymətləndirilməsi, Azərbaycanın qələbəsinin səbəbləri və nəticələri, torpaqların işğalına son qoyulması ilə regionda yeni şəraitin yaranması və mövcud vəziyyətdə qarşıda duran vəzifələrə aydınlıq gətirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Cənab Prezidentin nitqində həm beynəlxalq ictimaiyyətə, həm də Ermənistan rəhbərliyinə açıq, aydın və mövcud vəziyyətə adekvat mesajlar var idi". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, Azərbaycan 30 ilə yaxın müddətdə ATƏT-in Minsk qrupunun həmsədrlərindən ədalətli mövqe, işğalçıya təsir və təzyiq, işğala son qoyulması üçün əməli fəaliyyət gözlədi: "Amma bunların heç biri olmadı. Azərbaycan öz gücü hesabına, hərbi-siyasi yolla bu problemi həll etdi. Azərbaycan Minsk qrupunun həmsədrlərinin mandatının əsasını təşkil edən BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdi. Artıq bundan sonra ATƏT-in Minsk qrupunun həmsədrləri hansı istiqamətdə fəaliyyət göstərə bilərlər, bax bu barədə düşünməlidirlər. Çünki status-kvo, Madrid prinsipləri kimi anlayışlar olmadığı bir dövrdə həmsədrlər yalnız regionda yeni reallığa uyğun olaraq xalqların sülhə hazırlanması, etimad quruculuğu, etnik barışığın təmin olunması, yol və kommunikasiya xətlərinin açılması kimi məsələlərlə məşğul ola bilərlər. Buna uyğun olaraq yeni fəaliyyət proqramı ortaya qoymalıdırlar. Bu yolla regionda davamlı sülhün təmin olunmasına töhfə verə bilərlər. Amma fərdi olaraq ATƏT-in Minsk qrupunun üzv dövlətləri, xüsusilə də Fransa qərəzli mövqeyini kənara qoymalı və neytral tərəf olduğunu sübut etməlidir. Eyni zamanda ATƏT-in Minsk qrupu prosesində iştirak edən 11 dövlətin hamısı, o cümlədən Türkiyə də bu prosesdə yaxından iştirak etməlidir. Hər hansı diskriminasiya və ya prosesin siyasi inhisara alınması baş verməməlidir".

Sədaqət Vəliyeva diqqətə çatdırıb ki, ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistanın yenidən sabitliyi pozmağa cəhd etməməsinə ciddi nəzarət etməlidir: "Cənab Prezident İlham Əliyevin söylədiyi kimi əgər Ermənistan faşizmi yenidən baş qaldırarsa, bu dəfə tamamilə darmadağın ediləcəklər. Beynəlxalq ictimaiyyət Ermənistana birbaşa mesaj verməlidir ki, gələcəkdə heç zaman Azərbaycan xalqının hissləri ilə oynamasın, yoxsa ağır cəzadan yaxa qurtara bilməyəcək".

## "Rusiya sülhməramlıları anlamalıdırlar ki, fəaliyyətlərini öz öhdəliklərinə uyğun qurmalıdırlar"



"Rusiya sülhməramlıları tərəfindən 10 noyabr tarixli birgə bəyanatda müəyyənləşdirilmiş hüdudları pozaraq xəritələrlə manipluyasiya edilməsi və Xocavənd rayonunun Köhnə Tağlar və Çaylaqqala kəndlərində gizlənmiş erməni terrorçularının əsgərlərimizə, eyni zamanda mülki şəxslərə hücumu nəticəsində ölən və yaralananların olması Azərbaycan cəmiyyətində ciddi narahatlıq, narazılıqla qarşılanıb. Bu hal eyni zamanda təəssüf hissi doğurur ki, sülhməramlı missiyanın vəzifə və funksiyalarının beynəlxalq qanunvericilik və birgə üçtərəfli bəyanatla tənzimləndiyi halda, Rusiya sülhməramlılarının qeyri-real və düzəlişə ehtiyacı olan xəritə cızaraq dövriyyəyə buraxması göstərir ki, Rusiya öz öhdəliklərini açıq-aydın pozur. Cəmiyyətimiz haqlı olaraq sual edir ki, Rusiya sülhməramlılarına gündə bir xəritə cızaraq dövriyyəyə buraxmaq səlahiyyətini kim verir? Bu haqlı narazılığı əsas götürərək Rusiya sülhməramlıları anlamalıdırlar ki, fəaliyyətlərini öz öhdəliklərinə uyğun qurmalıdırlar". Bunu SİA-ya açıqlamasında politoloq Şəbnəm Həsənova deyib.

Ekspertin sözlərinə görə, Azərbaycan istər Rusiya sülhməramlılarına, istərsə də erməni tərəfinə bu cür hallar yaşandığı təqdirdə ciddi tədbirlər görüləcəyi barədə xəbərdarlıq edib: "Keçirilmiş əməliyyat nəticəsində hazırda həmin kəndlərə nəzarət Azərbaycan tərəfindədir. Yenə də eyni hallar təkrarlanarsa, Azərbaycan tərəfi adekvat addımlar atacaq. Bütün bunlarla yanaşı o məqam da vurğulanmalıdır ki, cəmiyyətimiz müharibə dövründə Rusiyanın Ermənistanı intensiv şəkildə silahlandırdığını, Gəncə, Bərdə və Tərtər şəhərlərinin məhz Rusiyanın Ermənistana verdiyi yeni silahlarla raket atəşinə tutulduğunu bildiyi üçün Rusiya sülhməramlılarının Dağlıq Qarabağda yerləşdirilməsi ilk gündən Azərbaycan ictimaiyyəti tərəfindən birmənalı qarşılanmadı, çoxsaylı suallara, cəmiyyətin müəyyən qruplarının narazılığına səbəb olduğu barədə də Rusiyanın məlumatı var. Bu cür hadisələr cəmiyyətimizdə onlara olan müəyyən etimad limitini ciddi surətdə yaralayır".

Ş.Həsənova bildirib ki, Rusiyada müəyyən dairələr Gürcüstan, Ukrayna, Moldova, Belarus və digər ölkələrdə həyata keçirdikləri planları Azərbaycanda təkrarlamağa cəhd göstərməməlidirlər: "Əgər həmin dairələr bir tərəfdən Qələbə paradında Rusiyanın Ermənistana hədiyyə etdiyi texnikanın Azərbaycan Ordusu tərəfindən götürüldüyünü, ya da məhv edildiyini həzm edə bilmirsə, onların ikinci qıcığına səbəb olan məqam paradda Ərdoğanın iştirakıdır. Bu gün Rusiyadakı bəzi dairələr başqa ölkələrə tətbiq etdikləri ssenari üzrə ixrac etdiyimiz kənd təsərrüfatı məhsullarımızın ölkəyə girişinə süni əngəllərlə mane olmağa çalışırlar. Heç şübhəsiz ki, cəmiyyət bütün bu halları dərk edir ki, bu da öz növbəsində ölkəmizdə anti-Rusiya meyllərinin daha da güclənməsinə imkan yaratmaqla bərabər, Rusiyanın ölkəmizdəki imicinə də zərbədir. Rusiyadakı o bəzi dairələr anlamalıdırlar ki, bizə qarşı atılan hər bir addım Ermənistanın zərərinə olacaq. Bu səbəbdən də Rusiya həm sülhməramlı missiyanın həyata keçirilməsində, həm də bölgədəki fəaliyyətində Azərbaycan xalqının maraqlarını nəzərə almalıdır".

***Aysel Məmmədova***

# Baş Prokurorluq: Dörd hərbi qulluqçu həbs edilib

***Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpası naminə aparılmış Vətən müharibəsində Azərbaycan Ordusunun hərbi qulluqçularının göstərdiyi şücaət, hərbi qulluq vəzifəsini yerinə yetirərkən nümayiş etdirdiyi mərdlik və peşəkarlıq tarixə qızıl hərflərlə həkk olunmuş zəfərin əldə edilməsinə səbəb olub.***




Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qarşıya qoyulmuş döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdikləri qəhrəmanlıq, hərbi qulluq vəzifəsini icra edərkən nümayiş etdirdikləri igidliyə görə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin çoxsaylı hərbi qulluqçuları Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə təltif ediliblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev işğal olunmuş ərazilərin azad edilmiş üçün əks hücum əməliyyatlarının başlanıldığı ilk gündən Ermənistan tərəfindən Azərbaycanın mülki əhalisinin hücuma məruz qalmasına baxmayaraq, Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi Azərbaycan Ordusuna yalnız döyüş meydanında düşmənin legitim hərbi hədəflərinə zərbələr endirmək, hərbi əsirlərə və mülki əhaliyə münasibətdə beynəlxalq humanitar hüququn norma və prinsiplərinə, o cümlədən Cenevrə Konvensiyalarının tələblərinə dönmədən əməl olunmasına dair tapşırıq verib. Ali Bas Komandanın göstərişlərini rəhbər tutan Azərbaycan Ordusunun əsgər və zabitləri torpaqlarımızın işğaldan azad edilməsi zamanı mülki əhali, o cümlədən qadın, uşaq və ahıl şəxslərə, əsir götürülmüş hərbçilərə, din xadimlərinə münasibətdə xalqımıza məxsus yüksək mədəniyyət və humanizm nümayiş etdirərək diqqət və qayğı ilə yanaşmış, bu münasibət həmin şəxslərin Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələri ilə görüşləri, yerli və xarici kütləvi informasiya vasitələrinə müsahibələri vasitəsilə geniş işıqlandırılıb.

Təəssüf hissi ilə qeyd olunmalıdır ki, müharibənin törətdiyi ağır psixoloji durumun təsiri altında bəzi hərbi qulluqçular tərəfindən düşmənə qarşı mübarizənin metod və üsullarının dərk edilməsində yanılmalar Silahlı Qüvvələrin göstərdikləri rəşadət və əzmə, eləcə də əldə olunmuş qələbəyə kölgə sala biləcək qanunsuz hərəkətlər törədilməsinə gətirib çıxarıb.

Belə ki, bəzi kütləvi informasiya vasitələri və sosial media səhifələrində yayılmış Azərbaycanın hərbi qulluqçularının döyüş əməliyyatları zamanı həlak olmuş erməni hərbçilərinin meyitləri üzərində təhqiredici hərəkətlər etmələrini, habelə əsir götürülmüş erməni hərbçiləri ilə qeyri-insani rəftarını əks etdirən videogörüntülər Azərbaycan Respublikasının Baş Prokurorluğu və Hərbi Prokurorluq tərəfindən təhlil edilərək öyrənilib, bəzi videoçarxların saxta olması müəyyən edilsə də, bəzilərinin doğru olmasına və reallığı əks etdirməsinə ciddi şübhələr yaranıb.

Əvvəllər bu barədə mətbuata verilmiş məlumata əlavə olaraq bildiririk ki, qeyd edilən məlumatlarla bağlı toplanmış materiallar əsasında Hərbi Prokurorluq tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 115.2-ci (işgəncə vermə, onlarla qəddar və ya qeyri-insani rəftar etmə) və 245-ci (qəbir və ya meyit üzərində təhqiredici hərəkət) maddələri ilə cinayət işləri başlanaraq iş üzrə intensiv istintaq-əməliyyat tədbirləri həyata keçirilib.

İstintaqla Azərbaycan Respublikası Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində kiçik gizir kimi xidmət aparan Rəşad Əliyev və Qardaşxan Abışovun Zəngilan rayonu ərazisində döyüş əməliyyatları zamanı öldürülmüş erməni hərbi qulluqçularının meyitlərinin üzərində təhqiredici hərəkətlərə yol verələrinə, etdikləri hərəkətləri smartfon tipli mobil telefonla videoqeydə alıb sosial şəbəkələr vasitəsilə digər şəxslərə göndərmələrinə əsaslı şübhələr müəyyən olunub.

Həmçinin istintaqla Azərbaycan Respublikası Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsinin əsgərləri Arzu Hüseynov və Ümid Ağayevin Xocavənd rayonunun Mədətli kəndi ərazisində yerləşən qəbiristanlıqda ermənilərə məxsus qəbir daşlarını dağıtmaqla üzərlərində təhqiredici hərəkətlərə yol vermələrinə, etdikləri hərəkətləri smartfon tipli mobil telefonla videoqeydə alıb sosial şəbəkələr vasitəsilə digər şəxslərə göndərmələrinə şübhələr üçün əsaslar müəyyən olunub.

R.Əliyev, Q.Abışov, A.Hüseynov və Ü.Ağayev Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda sosial mediada yayılmış digər videogörüntülərlə bağlı zəruri araşdırmalar aparılmaqla nəticəsi barədə ictimaiyyətə ətraflı məlumatın verilməsi təmin ediləcək.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bəyan edir ki, Azərbaycan Respublikasının hərbi qulluqçuları tərəfindən yuxarıda qeyd olunan cinayət əməllərinin törədilməsi yolverilməz olmaqla tolerant, multikultural dəyərləri üstün tutan, tarixən humanistliyi ilə seçilən Azərbaycan xalqının mentalitetinə ziddir. Oxşar xarakterli qanun pozuntularına yol vermiş şəxslər barəsində qanunla nəzərdə tutulmuş tədbirlər görülməklə məsuliyyətə cəlb edilmələri təmin ediləcək.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tövsiyələrinə uyğun olaraq, bu sahədə hüquq-mühafizə orqanları tərəfindən qeyd olunan hüquq pozuntuları ilə bağlı ictimaiyyət məlumatlandırılmaqla cinayət işləri çərçivəsində istintaq araşdırmalarının aparılmasına dair açıq bəyanatlar verilməsinə baxmayaraq, Ermənistan Silahlı Qüvvələri tərəfindən 101 dinc sakinin öldürülməsi, 423 mülki şəxsin yaralanması, habelə Ermənistan hərbi qulluqçularının döyüş əməliyyatları zamanı həlak olmuş azərbaycanlı hərbçilərin meyitləri üzərində təhqiredici hərəkətlər etmələri, habelə əsir götürülmüş azərbaycanlı hərbçiləri ilə qeyri-insani rəftarı əks etdirən videogörüntülərlə bağlı təəssüf ki, Ermənistanın hüquq-mühafizə orqanları, o cümlədən Baş Prokurorluğu tərəfindən hər hansı araşdırma aparılmamaqla tədbir görülməyib və açıqlama verilməyib.

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Prokurorluğu tərəfindən döyüş əməliyyatları zamanı həlak olmuş Azərbaycan hərbi qulluqçularının meyitləri üzərində təhqiredici hərəkətlər, əsir düşmüş azərbaycanlı hərbçiləri ilə qeyri-insanı rəftarı əks etdirən videogörüntülər, mülki Azərbaycan vətəndaşlarının öldürülməsi və onlara xəsarət yetirilməsi ilə bağlı bütün cinayətlər üzrə zəruri və intensiv istintaq hərəkətləri aparılır. Baş Prokurorluq tərəfindən təqsirli şəxslərin müəyyən edilərək mövcud hüquqi mexanizm və beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilməsindən ötrü mümkün olan bütün tədbirlərin görülməsi təmin ediləcək.

Eyni zamanda, Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistan hüquq-mühafizə orqanlarını analoji addımlar atmaqla beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycan vətəndaşlarına qarşı törədilmiş cinayətlərlə bağlı ciddi hüquqi təsir tədbirləri görməyə, açıq və ədalətli araşdırma aparmağa və ictimaiyyəti məlumatlandırmağa çağırır.



## Özgəsinin torpağına göz tikənin gözünə qan gələr!

RƏFİQƏ

***Həqiqətən də, özgəsinin torpağına göz tikənin gözünə qan gələr! Ay çaqqal "yan"lar başqasının torpağında nə işin var ki, it kimi qovulasan? Anlamayanda it kimi yox, belini qırmaq, necə ki, qırılırsan da! Sonra da başlayırsan siçan kimi gizlənməyə, alınmır. Çünki Müzəffər Azərbaycan Ordusunu siz donuzları bizim əsgərləri "canavar kimi üstümüzə şığıyırlar" dediyiniz həmin dəmir, cəngavər qoxmaz əsgər və zabitlərimizin qorxusundan deşik axtarırsınız ki, burnunuzu soxasınız. Ay bədbəxt, qorxaq donuzlar, onun-bunun dabanını yalamaqla heç bir şeyə nail ola bilməyən, Liderimizin verdiyi dərsdən hələ də ağıllanmayan alçaq Paşinyan 5 qram içib o 5 dramlıq başını itirərək o qədər həyasızlıq göstərir ki... Bu üzünə tüpürəndə, o biri üzünü çevirir. Ay həyasız təlxək Paşinyan, bilmirdin ki, "Qarabağ Ermənistandır, nöqdə" sərsəmləməsinə, "Qarabağ Azərbaycandır! NİDA! BAŞQA YOL YOXDUR!!! cavabını alacaqsan. Çünki bu yol haqq yoludur, birliyimizin yoludur! Bu yol Azərbaycanımızın ərazi bütövlüyü yoludur, ədalət yoludur, həmrəylik yoludur, azadlıq yoludur!.***

Çünki Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli addımları, xalqa müraciətləri cəmiyyətimizdə, dünyanın hansı nöqtəsində yaşamağından asılı olmayaraq, qəlbi Azərbaycanla döyünən hər kəsdə ruh yüksəkliyi yaradıb: "İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır!".

Məhz Xalq-İqtidar birliyinin, dövlət başçımızın 17 illik Prezidentlik fəaliyyətində ancaq və ancaq düşmən tapdağında olan torpaqlarımızın azad edilməsi ilə bağlı yüksək tribunalarda, verdiyi müsahibələrində qətiyyətlə çıxışları, söylədiyi hər söz, hər kəlməsi, Güclü Ordumuzun, Rəşadətli əsgərlərimizlə birliyinin nəticəsidir ki, 30 illik həsrətimizə son qoyuldu! Dəflərlə Azərbaycanın Ali Baş Komandanı həmin siçan deşiyi axtaran Paşinyana bildirmişdi ki, münaqişə sülh yolu ilə, qan tökülmədən torpaqlarımızdan çıxın! Çirkləndirməyin bizim torpaqlarımızı. Ancaq anlamadı, bu mənəviyyatsız Paşinyan. Anlamayanın da başını yaran birliyimizlə bərkiyən dəmir yumruğumuz var və bu dəmir yumruq başlarına elə dəydi ki, başlarını soxmağa siçan deşiyi axtarmağa başladılar.

Dövlət başçımızın dediyi kimi: "Biz onları məcbur etdik. Bax, bizim yumruğumuz sadəcə olaraq düşmənin başını yaran yumruq deyil. Bizim yumruğumuz bizim birliyimizdir, xalqımızın birliyi, məqsədyönlü fəaliyyət, beynəlxalq müstəvidə bizə sərf edən və ədaləti əks etdirən qərarların, qətnamələrin qəbul edilməsidir".

Başqa cür də ola bilməzdi. Bilmirdiniz ki, azərbaycanlılara qarşı etnik təmizləmə aparmaq, azərbaycanlılara qarşı soyqırımı törətməyin, bizim vətəndaşlarımızı doğma torpaqdan didərgin salmağın, illərlə "status-kvo" oyununun bir sonu olmaylı idi. Dövlətimizin başçısının dediyi kimim: "Mən demişəm, status-kvo yoxdur. Status-kvonu biz məhv etmişik və düz də etmişik, cəhənnəmə getdi status-kvo, göra getdi!". Bəli, bu gün Paşinyan və onun ətrafında olan it kimi qoxaqlar bütün hərbi texnikalarını atıb it kimi də torpaqlarımızdan qolvuldular: "Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Bizim əsgərlərimiz o tanklarda oturub düşmənə onların öz tankları ilə atəş açırlar".

"Mən xalqıma hər zaman həqiqətləri demişəm"

Bəli, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənabları 17 illik prezidentliyi dövr ərzində həmişə xalqı ilə bir olub, hər zaman xalqına həqiqətləri deyib. Verdiyi sözü ilə əməli bir olub. Azərbaycan Prezidenti İlham Əliyev hələ dörd il 2016-cı ildə demişdi ki, torpaqlarımızın azad olunmasına çox az zaman qalıb: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

Bu gün nəticə göz önündədir. Dövlət başçımızın dediyi kimi: "Mən də xalqıma hər zaman həqiqətləri demişəm. Nə var onu da demişəm. Bu gün də nə var onu deyirəm...Düşməni necə ki, döyüş meydanından qovuruq, düşmənin havadarlarının təxribat xarakterli addımlarına da lazımi cavab veririk. Azərbaycan tək deyil, beynəlxalq birlik tərəfindən ərazi bütövlüyümüz tanınır, biz beynəlxalq hüquq normaları çərçivəsində fəaliyyət göstəririk...Heç bir qüvvə bizim iradəmizə təsir edə bilməz. Düşməni sona qədər qovacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!".

Bax, bu gün -10 dekabrda Qələbə Paradamız keçirildi və işğaldan azad olunan torpaqlarımızda dalğalanan üçrəngli Azərbaycan Bayrağımız Azadlıq meydanına gətirildi!.

Dəmir yumruğa çevrilən 44 günlük Vətən Müharibəsinin ZƏFƏR PARADI bütün dünyay sübut etdi ki, haqqın, ədalətin, ərazi bütövlüyümüzün bərpası uğrunda Vətən Müharibəsi Azərbaycan Prezidenti, Ali Baş Komandanımızın diplomatik siyasəti, Güclü Ordumuz, rəşadətli, qorxmaz əsgər və zabitlərimizin gücü ilə nail oldu və Qarabağ Azərbaycanıdır! Qarabağ Azərbaycandır!

Budur nəticə və bu gün dəmir yumruğumuzun qüvvəsindən əzilən özü haqqında məğlubedilməzlik sindromu yaradan Paşinyana və onun ətrafına yerini göstərdi və əzilən bu yumruğun təsirindən özlərinə gəlmək üçün Ermənistana illər lazım gələcək. Çünki Qarabağ Azərbaycandır! Və bu it kimi qovulanlar bilməlidirlər ki, özgəsinin torpağına göz tikənin gözünə qan gələr!

# Rus qoşunları onlarla suriyalı muzdlunu Qarabağa necə cəlb edib?

*Liviyaya deyil, məhz Dağlıq Qarabağa...*

***Suriya hökumətinin köməyi ilə rus qoşunları bu dəfə də yüzlərlə suriyalını yenidən pulla şirnikləndirərək Ermənistanda döyüşməyə cəlb edib. Eyni zamanda və yalnız döyüş məqsədi ilə digər erməni əsilli Suriyalılar da döyüş meydanına göndərilibər.***

Ötən il oktyabr ayında ABŞ əsgərlərinin bölgədən çəkilməsindən sonra imzalanan 17 sentyabr 2020-ci il tarixində hərbi razılaşma çərçivəsində, Ain al-Arabın qərbində Çərikli kəndi yaxınlığında Rusiya-Türkiyə ortaq patrulları nəzarəti həyata keçirir.

Rusiyanın nəzarəti altında olan Xmeymim hava bazasından, Latakiya vilayətinin Cable şəhəri yaxınlığında, Suriyalılar Azərbaycana qarşı müharibədə erməni qüvvələri ilə birlikdə 2020-ci ilin sentyabr və oktyabr aylarında Liviyaya göndərildikləri kimi, eyni ilə muzdlu kimi döyüşə göndərilibər. Şahid ifadələrinə və "Suriyalıların Həqiqət və Ədalət üçün" (STJ) təşkilatının ifadələrinə və bir neçə etibarlı mənbədən alınan məlumatlara görə, Rusiya hərbçiləri Suriya hökuməti ilə verbofka üçün danışıqlar qurublar. Yeni işə götürülənlər demək olar ki, yalnız Homs və Deyr əz-Zor vilayətlərindən olan 5-ci Legionun üzvləridir.

STJ sahə müstəntiqlərinin ifadələrinə görə sözügedən döyüşçülərin, muzdluların Liviyaya getdiyi iddia edilib. Lakin orada döyüşlər səngiməyə başladıqda, münaqişə Dağlıq Qarabağ ətrafında başlayıb. Beləliklə, Rusiya qoşunları bu döyüşçüləri Liviya əvəzinə Ermənistana göndərərək hədəflərini dəyişdiriblər və planlardakı dəyişiklikləri demək olar ki, bütün əsgərlərdən gizlədiblər.

Bu hesabatda, Suriyalı döyüşçülərin, muzdluların təxmini itkiləri də əlavə olaraq ən az beş köçürmədə sənədləşdirilərək öz təsdiqini tapıb. STJ, təxminən 10 ölüm faktını qeyd edib, yalnız bir neçə cəsəd ailələrə çatdırılıb və 40-dan çox yaralı var. Bütün yaralı çağırışçılar Ermənistandan Homs vilayətinə qaytarılıb və yerli hərbi xəstəxanaya yerləşdirilib.

Bundan əlavə, hesabatda Suriya ermənilərinin Beyrut və Şam hava limanları vasitəsi ilə Ermənistana onlarla uçuş reysi sənədləşdirilib. Lakin bu uçuşlar Rusiya hərbçiləri tərəfindən həyata keçirilməyib, Livan və Suriyadakı erməni siyasi təşkilatları tərəfindən və yalnız hərbi məqsədlə təşkil edilib ki, bu hallarda pul hərəkətverici qüvvə hesab olunmur.

Qeyd etmək lazımdır ki, bu hesabat həm silahlı, həm də mülki olan minlərlə Suriyalının xarici müharibə bölgələrinə davamlı cəlb edilməsini araşdırmaq üçün geniş bir STJ səyinin yalnız bir hissəsidir və indiyə qədər bu iş əsasən Türkiyə və Rusiyanın nəzarəti altında aparılırdı.

Hesabat məqsədi ilə STJ, Suriyalı hökumət qüvvələri və erməni mənşəli döyüşçülər, mülki vətəndaşlar, o cümlədən araşdırılan dövrdə Dağlıq Qarabağ göndərilən əsgərlərin ailə üzvləri daxil olmaqla, ümumilikdə 10 müsahibə aparmışdır. Buradakı ifadələri verilən şəxslərlə bu ilin 2020-ci ilin sentyabr, oktyabr və noyabr aylarında şəxsən və ya onlayn şəkildə əlaqə saxlanılıb.

Bundan əlavə, STJ-nin rəqəmsal məhkəmə kriminalistikası, ekspertizası Suriyadan döyüşçüləri Ermənistana gətirən təyyarələrin uçuşlarını da izləyib və komandanın topladığı açıq mənbəli məlumatları analiz edib.

**Suriyalılar orduya muzdlu kimi qoşulub. Bəs bu verbofka necə həyata keçirilib?**

Bildirilir ki, verbofka Suriya hökumət qüvvələrini köməyə çağıran Xmeimim aviabazasında yerləşdirilən Rusiya qüvvələrinin birbaşa istəyi ilə təşkil edilib. STJ-nin ifadəsinə görə, yüksək səviyyəli klan məmurları, onlarla sıx əlaqəsi olan qeydiyyatçılar bir tərəfdən, rus qoşunları arasında vasitəçi rolunu oynayanlar digər tərəfdən olmaqla sonuncuların böyük rolu olub.

Deyr-əz-Zorda, hərbi və mülki mənbələr, tanınmış klan xadimlərinin və hökumətyönlü komandirlərin Suriyalı kişilərin işə qəbul edilməsini asanlaşdırdığını, bəzilərinin diqqətini cəlb etdiyini və daha sonra onları Rusiya qoşunlarına tövsiyə etdiklərini göstərən məlumatlar təqdim ediblər. İşə qəbulda, verbofkada iştirak edən vasitəçilər, brokerlər arasında S. əl-Hərbi, M. əl-Fayad, M. əl-Hamud və F. əl-İraqiyyə də var.

Homs əyalətində, xüsusilə də şərq ətrafındakı bölgələrdə, Bani Xalid qəbiləsinin şeyxi F. əl-Haddar və əl-Favaer qəbiləsinin şeyxi M. əl-Fadu, eləcə də M. əl-Mələxm və A. Əl-Nasif başda olmaqla, hansıki, Əl-Nəim qəbilələrinin aparıcı simaları hesab olunur, görkəmli simalar tərəfindən işə qəbul asanlaşdırıldı.

Rusiya tərəfindən qurulan və Suriya silahlı qüvvələrinin tərkibində fəaliyyət göstərən 5-ci Legionun hərbi qulluqçularını göstərən iki qrup silahlı, muzdlu qrup 21 oktyabr 2020-ci ildə Ermənistana gətirilib. İlk partiyanı 23 nəfəri işə qəbul edən M. əl-Hamoud, ikinci partiyanı, 14 əsgər daxil olmaqla, M. əl-Fayyad təşkil edib. Onlar Xmeymim hava bazasına aparılıb və daha sonra Ermənistana göndərilib.

Liviyaya yox Ermənistana göndəriliblər.

Ermənistanda çoxlarının muzdlu kimi işə götürülməsi Liviya ilə müqayisədə daha sadə idi, deyə STJ sahə tədqiqatçılarına müsahibə verən şahidlər bildirib. İşə qəbul olunanlara və ya ailələrinə əsl təyinat yeri barədə heç bir məlumat verilməyib. Hətta bir çox ailə, oğullarının Liviyada müəyyən tapşırıqları yerinə yetirdikləri qənaətində olduqları halda, onların Ermənistanda döyüşdüklərini eşidəndə şoka düşüblər.

**Bunu şərh edən 5-ci Legion kapitanı deyib:**

"Ermənistanda döyüşə göndərilən əsgərlərə prosesin təfərrüatları barədə tam məlumat verilməyib. Bu aylarda bir neçə vilayətdə bu cür işə qəbul olunmalarına dəstək kampaniyalarının başladığını nəzərə alaraq, başlanğıcda onlar, pul müqabilində Liviyada döyüşmək üçün qeydiyyatdan keçiblər. İnanıram ki, hərbi əməliyyatlar gücləndikdən və Liviyadakı aktiv döyüşlər dayandırıldıqdan sonra işə qəbul edilənlər Ermənistana göndərilib. Mən deyərdim ki, bu çox yaxşı olub, çünki, onlar gözləmə siyahısında idilər."

**Ermənistandakı hərbi əməliyyatlara görə söz verilən maaşlarla əlaqədar olaraq kapitan əlavə edib:**

"Maaşlar ixtisas və tələb olunan bacarıqlardan asılı olaraq 1000-2000 dollar arasında tez-tez dəyişib. Bununla yanaşı, fiziki zərər və ya xəsarət halında kompensasiya nəzərdə tutulmayıb. İtkin düşənləri axtarmaq və ya məhbus mübadiləsi sövdələşmələri aparmağa borclu deyildik. Bununla bərabər, işə qəbul edilənlər ödənişi özləri də ala bilərdilər, yaxud işin müqabilində öz payları ailə üzvlərinə işə imza atan brokerlər tərəfindən verilə bilərdi."

Liviyaya deyil, Ermənistana göndərilən əsgərlərdən birinin anası onların manipulyasiya etdiyini söyləyib. Oğlunun ən kiçik bir məlumat, işarə belə olmadan Ermənistana göndərildiyini də o bildirib.

**Oğlu döyüşə göndərilən həmin qadın STJ tədqiqatçısına bunları söyləyib:**

"Pula çox ehtiyac duyurduq və buna görə də oğlum silahlı qrup olan əl-Hərbi briqadasına qoşulmaq niyyəti ilə S. əl-Hərbi ofisinə üz tutub. Orada yaxşı maaş müqabilində onu Liviyaya getməyə razı salıblar. O, adını qeyd edib, amma dərhal yox. Ona 15 sentyabr tarixində zəng gəlib ki, Liviyaya bir təyyarə təxliyə yola düşür. Bunun ardınca, ertəsi gün oğlu evdən çıxıb, 18 sentyabrda zabitin cib telefonu ilə Xmeymim hava bazasından bizə zəng edib və Liviyadakı həyati əhəmiyyətli obyektləri qorumaq vəzifəsi aldığını söyləyib. Bu, onun haqqında son dəfə eşitdiyimiz, son məlumatımız olub. Daha sonra əl-Hərbi ofisindən olan insanlar bizə oğlumun və digər gənclərin Liviyaya deyil, Ermənistana köçürüldüklərini deyərək, orada silahlıların az olduğunu söyləyiblər. Onun harada olduğunu öyrənmək üçün ofisə getdik və orada oğlumun milli vəzifəsini yerinə yetirildikdən sonra yenidən qayıdacağını dedilər. Bizi əmin etdilər ki, o artıq iki aylıq əmək haqqını alıb və indi Ermənistandadır".

Homs əyalətinin Palmira şəhərindən olan yeni cəlb olunanlardan birinin qohumu deyib ki, M.A. döyüşdə öldürülüb və cəsədi bu yaxınlarda ailəsinə təhvil verilib. M.A. özü də Liviyaya göndərilmək üçün qeydiyyatdan keçib, lakin onun da göndəriləcəyi yer dəyişdirilib, hansı ki, nə o, nə də yoldaşları bu barədə, bu dəyişiklik barədə xəbərdar deyildilər.

**Haqqında danışılan insanın qohumu bunları da əlavə edib:**

"Avqustun ortalarında M.A. adını Liviyaya getmək məqsədi ilə qeydiyyatdan keçirib. İşə qəbul Palmira şəhərinin Milli Müdafiə Qüvvələrinin əsgəri A. Abdulmutinin vasitəçiliyi ilə təşkil edilib. Qeydiyyatdan keçirən mənim qohumuma 1000 dollar maaşına görə 500.000 Suriya lirası (SYP) avans verib. Digər 15 nəfər qeydiyyata alınıb. Hamısı 11 sentyabrda Palmira aviabazasında toplaşmış və növbəti iki günü də orada keçirmişlər. Oradan onlar Xmeimim Air B-yə köçürülmüşlər.



Suriyalı muzdlular Xmeimim aviabazasından Ermənistana, Erebuniyə Rusiya hərbi təyyarəsi ilə gətirilib. Bu barədə STJ-yə 5-ci Legion komandiri və sahə tədqiqatçısı bildirib. Çağırışçılar əvvəlcə, 19-22 sentyabr tarixlərində, qalanları isə 12, 21 və 27 oktyabr 2020-ci il tarixlərində köçürülüblər.

STJ-nin rəqəmsal məhkəmə ekspertizası yuxarıda göstərilən uçuşları izləməyə çalışıb, lakin qeydlərinin heç biri Flightradar24 veb saytında mövcud olmayıb.

**Ölüm və zədə**

Sentyabr və oktyabr aylarında Rusiya qüvvələri Ermənistanda öldürülən ən azı 15 suriyalı muzdlunun cəsədini daşıyıblar. Eynilə, Xmeymim hava bazasından ən az 12 yaralını Homs hərbi xəstəxanasına köçürüblər.

Homs hərbi xəstəxanasında bir tibb işçisinin verdiyi məlumata görə, Xmeymim aviabazasından ölən və ya yaralanan əsgərlərin altı partiyası avqust, sentyabr və oktyabr aylarında Liviya və Ermənistandan gəlib. Son iki partiyanın şübhəsiz ki, Ermənistandan gətirildiyi də vurğulanıb.

**Tibb işçisi deyib:**

"Son üç ayda 35 döyüşçünün cəsədi və bundan daha çox yaralı Xmeymim aviabazasından xəstəxanaya çatdırılıb. Onlar Liviyada və Ermənistanda döyüşüblər. Bir çox cəsəd hələ də ailəsi tərəfindən götürülməyib."

O, həmçinin əlavə edib: "29 sentyabr və 12 oktyabr tarixlərində dəri üzərində qəlpə yaraları və güllə yarası izləri olan 9 cəsəd təslim edilib. Ölənlər, çox ehtimal ki, Ermənistandan daşınırdı. Bu barədə Xmeymim aviabazasından xəstəxanaya çatdıran yaralılar zabitlər məlumat veriblər."

Eyni kontekstdə, 12 və 27 oktyabr tarixlərində Ermənistanda öldürülən 5 Suriyalı muzdlu cəsəd iki partiyada Tartu hərbi xəstəxanasına çatdırılıb. Daha sonra xəstəxanadan Deyr əz-Zor hava limanına aparılıb. Orada isə ailələrini gəlib ölmüş oğullarının cəsədlərini götürmək təklif edilib.

Deyr əz-Zordan olan və hələ də Ermənistandan köçürülməmiş daha 14 yaralı yaraqlı haqqında məlumat var.

Bu yaxınlarda Ermənistanda öldürülən muzdlu əsgərin valideynləri ilə 4-cü diviziya nümayəndələri əlaqə saxlayıblar və gəlib oğlunun cəsədini yaralı qohumu ilə birlikdə götürmələrini xahiş ediblər.

**Ailəsi belə nəql edir:**

"Xəbəri 4-cü bölmə çatdırdı. H.A. ancaq yaralı olub. M.A. isə öldürülüb. Onların sözlərinə görə, xaricdə vəzifə yerinə yetirərkən ölüb. Cəsədi və yaralı gənci Homs hərbi xəstəxanasından çıxara biləcəyimizi bizə dedilər. Biz oktyabr ayının ikinci yarısında həqiqətən oraya getdik və həm öldürülənlərin, həm də yaralananların Xmeymim aviabazasından hərbi təyyarə ilə xəstəxanaya aparıldığının şahidi oluq."

**Suriya erməniləri müstəqil olaraq Dağlıq Qarabağdakı döyüşə girirlər**

Beş Suriyalı-erməni mənbələrindən gələn məlumatlara əsasən STJ, Suriyada və sığınacaq tapdıqları digər ölkələrdə yaşayan onlarla erməninin erməni qoşunları ilə birlikdə döyüşməyə getdiyini sənədləşdirib, qeyd edib. Qeyd edilib ki, bunlar müstəqil şəkildə və ödəniş məqsədləri olmadan iştirak ediblər. Bu kimi səfərlər Suriyadakı rəsmi qurumlarla koordinasiyalı şəkildə təşkil edilməyib, əksinə, bu şəxslər və Ermənistandakı hərbi təşkilatlar arasında koordinasiya edilib. Bu insanların bəziləri döyüşlər zamanı öldürülüb.

**Suriya-erməni silahlılarından biri STJ-yə bunları söyləyib:**

"Növbətçi adlanır. Biz ora varlığı təhdid, təhlükə altında qalan ermənilərin müdafiəsi üçün gəldik. Bu döyüşçülər Suriya, Livan, Cənubi Amerika və hətta Kanadadan gəlmişdilər. Ən azı 147 nəfər idik. İrəvanın paytaxtındakı düşərgələrdə silah istifadəsi ilə bağlı qısaca təlim keçdik. Sonra da hər birində 30 könüllü olan hissələrə bölündük."

**Döyüşçü eyni zamanda əlavə edib:**

"Müharibənin əvvəlindən bəri erməni könüllülər, xüsusilə Livan və Suriyalılar işə cəlb edilib. Livanın Burj Hammud şəhərində olanlar, olaraq, Ermənistanın Qurtuluşu üçün Erməni Gizli Ordusunda (ASALA) qeydiyyatdan keçirirdilər. Rusiyanın Əl-Hasakah vilayətində müəyyən etdiyi müttəfiq qüvvələrin digərləri, Dağlıq Qarabağ münaqişəsi veteranı Rizjan Sarandjyanın komandanlığı altında könüllü olaraq iştirak ediblər. Ermənistandakı döyüşlərdə iştirak etmək üçün Suriya və Livandan iki qrup yaraqlı gəlib. Bu barədə Latakiya vilayətinin Kessabdakı erməni xristianlarının sözçüsü Qaro Mancikyan STJ-yə bildirib.

**O, əlavə edib:**

"İlk partiya 6 oktyabr 2020-ci ildə Beyrut hava limanından yola düşüb. Bununla birlikdə ikinci partiya 17 oktyabr 2020-ci ildə Cham Wings Hava Yollarının yola saldığı Şam Beynəlxalq Hava Limanından yola salınıb. İkinci qrupa erməni könüllüləri və İran Qüds Gücünün digər üzvləri də daxil idi."

**Həmçinin qeyd edib:**

"Latakiya vilayətindəki Kessaba erməni kəndlərinin əhalisi Dağlıq Qarabağla bağlı mübahisə düşəndə demək olar ki, tamamilə Livana köçüb.

***Tərcümə etdi:***
***İnam Hacıyev***

# Qarabağ xanlığı və sonrakı dövrdə erməni ekspansiyası

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***Qarabağa İran və Türkiyədən köçürülən ermənilərin yerli əhaliyə qarşı soyqırım və işğal prosesi necə başladı?***

Ermənilərin özlərini dünyanın ən qədim xalqı hesab etməsi, Yaxın Şərq və Qafqazda "Böyük Ermənistan" adlı mifik dövlətləri haqda cəfəngiyyatları tarix elmində heç bir fakta, sənədə, dəlilə söykənməyən uydurmalardır. Qarabağla bağlı saxta erməni tarixi, erməni irsi, erməni mədəniyyəti də heç bir elmi əsası olmayan, fakta söykənməyən boşboğazlıqdan o yana keçmir. Qarabağda olan hər şey Azərbaycan xalqının tarixi irsidir, qədim mədəniyyətidir, bunun minlərlə elmi sübutu var. Yazımızda bu məqamlara toxunacaq Qarabağın xanlıq və çar Rusiyasına qədərki tarixini analiz etməyə çalışacağıq.

### Qarabağ xanlığının siyasi və etnik mənsubiyyəti

1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra Cavanşir sülaləsindən olan Pənahəli xan Qarabağ xanlığının əsasını qoymuşdu. Qarabağ xanlığı Kiçik Qafqaz dağlarının cənub-şərqində yerləşirdi. Xanlığın sərhədləri Araz çayından Göyçə gölünədək, Tərtər çayından bütün düzənlik və Dağlıq Qarabağı, Zəngəzuru, Bərgüşadı əhatə etməklə Mehri, Tatev və Sisiana qədər uzanırdı. Xanlıq Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə həmsərhəd idi.

Səfəvi dövründə Qarabağ bəylərbəyliyinin paytaxtı Gəncə şəhəri olduğu üçün sonralar isə Əfşar imperiyası dövründə Qarabağ vilayəti Azərbaycan bəylərbəyliyinin paytaxtı Təbriz şəhərinə tabe olduğu üçün Qarabağ xanlığının yarandığı zaman burada sosial-iqtisadi mərkəz rolunu oynayan şəhər yox idi. Pənahəli xan bu məqsədlə 1748-ci ildə Kəbirli mahalında Bayat qalasının tikilməsini əmr etdi.

Pənah xanın müstəqil dövlət quruculuğu sahəsindəki fəaliyyəti onun rəsmən tanınması ilə nəticələndi. Mirzə Camal yazır: "Müsəlman tarixi ilə 1161, xristian tarixi ilə 1745-ci ildə (1748-ci il olmalıdır) Adil şahın Pənah xana "xan" adı verilməsi və Qarabağ hakimi vəzifəsinə təyin edilməsi haqqında fərmanı, qiymətli xələt, qızıl yəhərli at və daş-qaşla bəzənmiş qılıncla birlikdə Sərdar Əmir Aslanın yaxın adamı vasitəsilə o zaman yaşadıqları Bayat qalasına gəlib çatdı".

1751-ci ildə isə Pənahəli xan Ağdam yaxınlığında Şahbulaq yaylağında daha möhkəm qala, yəni Şahbulaq qalasını tikdirdi. Lakin bu qala da coğrafi cəhətdən əlverişli yerdə yerləşmədiyi üçün Şuşakənddən bir qədər aralı,hündür, sıldırım dağ üstündə qalanın, Şuşa qalasının inşasına başlandı və 1756-1757-ci illərdə tikilib başa çatdırıldı. Qala Pənahabad, və ya Şuşa adlandırılırdı.

1763-cü ildə Pənahəli xanın ölümündən sonra hakimiyyətə İbrahimxəlil xan gəldi. Məlikliklərə qarşı uğurlu müharibələr aparıldı. Ədəbiyyat və elm sahəsində Pənahəli xan dövrünə nisbətən daha çox irəliləyiş oldu.

İbrahimxəlil xanın dövründə Şuşada Gövhərağa məscidi inşa olundu. Lakin İbrahimxəlil xanın hakimiyyətinin sonlarında xüsusən də Ağaməhəmməd şah Qacarın yürüşlərindən və Rusiya-Qacar müharibələrindən sonra xanlıq zəifləməyə başladı. Ağaməhəmməd şah Qarabağa 1795 və 1797-ci illərdə 2 yürüş etdi. İkinci yürüşdə Şuşa qalasını ələ keçirməyə nail oldu. Lakin onun Şuşada qətlə yetirilməsindən sonra İbrahimxəlil xan hakimiyyətini yenidən bərpa edə bildi.

### Qarabağ Rusiya tərkibində: nələr baş verdi?

Hələ XVIII əsrdən Qafqazı öz təsiri altında salmaqla iqtisadi maraqlarını təmin etmək istəyən Rusiya XIX əsrin 1-ci yarısında buna nail oldu. 1805-ci ildə Qarabağ xanı ilə Rus imperatoru arasında "Kürəkçay" müqaviləsi imzalandı. 11 maddədən ibarət "Andlı öhdəlik" adlanan bu traktat ilə Qarabağ xanlığı Rusiya himayəsinə qəbul edildi. Bu traktatın şərtlərinə görə Qarabağ xanlığı Rus imperiyasının vassalı oldu (Traktat mejdu Karabaxskim xanom i Rossiyskoy imperiey o perexode xanstva pod vlasti Rossii ot 14 maye 1805 qoda. 6-cı maddə; Qarabaq: Kurakçayskiy doqovor-200, Baku, 2005, 176 s; Hacıyev Q.Ə. Kürəkçay müqaviləsi və Qarabağın sonrakı tarixi taleyi // Qarabağ dünən, bu gün və sabah. 2006, s.142-147)

"Kürəkçay"ın (1805-i il) ardınca Rusiya ilə İran arasında bağlanan "Gülüstan" (1813-cü il) və "Türkmənçay" (1828-ci il) müqavilələsindən sonra Rusiya dövləti qısa müddətdə (1828-1830-cu illərdə) İrandan 40 min və Türkiyədən 90 min ermənini Qarabağa köçürdü və məskunlaşdırdı. Çar Rusiyası Qarabağda erməniləşdirmə prosesinə başladı (Umudlu V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828), Bakı, 2004,180 s.) Bununla da Azərbaycanın Qarabağ bölgəsi münaqişə yuvasına çevrildi.

İbrahimxəlil xanın ölümündən sonra 1806-ci ildə hakimiyyətə Mehdiqulu xan gəldi. 1805-ci ilin iyulunda, Kürəkçay müqaviləsindən sonra çar I Aleksandr tərəfindən general-mayor rütbəsi verilmişdir. Mehdiqulu xan siyasi təzyiqlər üzündən 1822-ci ildə xanlığı tərk edərək İrana getmişdir. Bununla da Qarabağ xanlığı ləğv olunmuşdu.




Mehdiqulu xan sonradan xahiş edərək 1826-cı ildə Qarabağa döndü. Lakin ona sadəcə Qarabağda yaşamaq hüququ verildi və xan vəzifəsi bərpa olunmadı. Mehdiqulu xan 1845-ci ildə vəfat etdi.

1828-1830-cu illərdə Rusiya hakimiyyəti İran və Türkiyədən Cənubi Qafqaza 140.000 erməni köçürüb. Onların böyük hissəsi Qarabağda yerləşdirildi. İran və Türkiyədən kütləvi miqrasiya, xüsusilə Rusiya hökumətinin onlar üçün yaratdığı əlverişli iqtisadi şərait nəticəsində köçkünlərin arasında doğum sayının artması ilə yanaşı, 19-cu əsrin birinci yarısı ilə ermənilər və müsəlmanlar arasında nisbətin dəyişməsinə gətirib çıxardı.

19-cu əsrin 1-ci yarısını müqayisə edərkən

* 1811-ci il - ermənilər 20,8% / müsəlmanlar 79%,

* 1823-cü il - ermənilər 21,7% / müsəlmanlar 78%,

* 1830-cu il - ermənilər 33% / müsəlmanlar 66,6%)

19-cu əsrin 2-ci yarısını müqayisə edərkən

* 1889-cu il - ermənilər 45,5% / müsəlmanlar 54%,

* 1897-ci il - ermənilər 41,5% / müsəlmanlar 57%,

* 1904-cü il - ermənilər 41,6% / müsəlmanlar 57%,

* 1914-cü il- ermənilər 41% / müsəlmanlar 55%)

XX əsrin əvvəllərində Qarabağda etnik təmizləmə siyasəti geniş vüsət aldı. Bu, 1905-1906-ci illərdə türk-müsəlmanların silahlandırılmış ermənilər tərəfindən qırğını ilə nəticələndi (Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, 1993; Ordubadi M.S. Qanlı illər. Bakı, 1991).

### Qarabağ Azərbaycan Respubliaksı tərkibində

1918-ci ilin mart ayında Qarabağ bölgəsinin azərbaycanlı əhalisi də soyqırıma məruz qaldı. 1918-1920-ci illərdə Qarabağda erməni daşnakları Qarabağın qəzalarında kəndləri məhv edərək minlərlə azərbaycanlını öz doğma yurdlarından qovdular (Məmmədova H. Qarabağın general-qubernatoru Xosrov bəy Sultanov. Azərbaycan MEA Xəbərləri (tarix, fəlsəfə, hüquq seriyası). №2, 1999. s.54-59).

1918-ci ildə milliyyətçi Daşnaksutyun Partiyasının rəhbərliyi ilə elan edilmiş Ermənistan Respublikası öz ərazisini əsasən müsəlmanların məskunlaşdığı vilayətlər hesabına genişləndirməyə çalışırdı. Bunun üçün orada erməni say çoxluğunu süni surətdə təmin etmək məqsədi ilə müsəlmanların qırılması və qovulması siyasəti aparılmışdır. Məqsəd ermənilərin 50%-ni təşkil etdikləri Şuşa qəzasını, müsəlmanların payı 70-75%-ə çatan Qarabağın qalan hissəsindən ayırmaq idi.

1918-1920-ci illərdə daşnaklar Qarabağın Zəngəzur və Şuşa qəzalarında fəal etnik təmizləmə apardılar. "Dinc müsəlman əhali amansızcasına qətl edilir və bir çox kəndlər yandırılır", - deyə 1919-cu ilin dekabrında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı N.Yusifbəyli Cənubi Qafqazda Qərb dövlətlərinin komandanlığına məlumat göndərib.

1920-ci ilin mart ayına qədər yalnız Zəngəzurda 40-a qədər müsəlman kəndi məhv edilmiş, 60.000 müsəlman qaçqın düşmüşdü. Qarabağın başqa rayonlarından, məsələn, Cavanşir qəzasından da azərbaycanlı əhalinin kütləvi köçü baş verirdi.

Beləliklə, 1920-ci ilədək Dağlıq Qarabağda və Qərbi Zəngəzurda on minlərlə müsəlmanın qovulması və 50-dən çox müsəlman kəndinin məhv edilməsi yolu ilə ermənilərin say çoxluğu təmin edildi. Bu, Qərbi Zəngəzurun Sovet Ermənistanına verilməsi (1920) və Dağlıq Qarabağda erməni muxtariyyətinin (1924) yaranması üçün əsas oldu.

**_Altay_**

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

15 dekabr

QARABAĞ AZƏRBAYCANDIR!


## Messi Pelenin rekordunu yeniləməyə hazırlaşır



"Barselona"nın hücumçusu Lionel Messi "Levante" (1:0) ilə La Liqanın 13-cü turunun matçında fərqlənib. AZƏRTAC xəbər verir ki, "Levante"nin qapısına vurulmuş qol 33 yaşlı argentinalının karyerasında 642-ci olub. Lionel Messinin əfsanəvi braziliyalı futbolçu Pelenin bir klubda vurduğu 643 qolu fəth etməsinə yalnız bir qol qalır.

Pele 1956-1974-cü illərdə Braziliyanın "Santos" klubunda çıxış edib, sonra ABŞ-da daha iki mövsüm keçirib.

## UEFA Avropa Liqası: Pley-off mərhələsinin püşkü atılıb




Dünən futbol üzrə UEFA Avropa Liqasının 2020-2021-ci il mövsümünün onaltıdabir final mərhələsinin püşkü atılıb. Belə ki, UEFA-nın İsveçrənin Nyon şəhərindəki mənzil-qərargahında keçirilən püşkatma mərasimində cütlüklər müəyyənləşib.

Püşkatmada qruplarında ilk iki yeri tutmuş 24 komanda ilə yanaşı, UEFA Çempionlar Liqasından gəlmiş 8 klub iştirak edib. Artıq onlar iki səbətə bölünüblər. Qrup qalibləri və UEFA Çempionlar Liqasından mübarizəni dayandırmış kollektivlərdən 4-ü səpələnmişlər, digərləri isə səpələnməmişlər səbətində yer alıblar. Azərbaycan çempionu "Qarabağ"ın mübarizə apardığı I qrupundan İspaniyanın "Vilyarreal" və İsrailin "Makkabi Təl-Əviv" klubları pley-offa vəsiqə qazanıblar.

Bu mərhələdə UEFA Avropa Liqasında eyni qrupdan çıxmış komandalar, həmçinin eyni ölkə təmsilçiləri rəqib ola bilməzlər. Bundan əlavə, siyasi vəziyyətlə bağlı Rusiya və Ukrayna klubları üz-üzə gəlməyəcəklər.

## Yeni doğulan oğlan və qız uşaqlarına ən çox hansı adlar qoyulur?

Bu il doğulan 1898 oğlan uşağına Yusif, 1927 qız uşağına isə Zəhra adı verilib. Bu, adseçmə məsələsində ilk 11 ayda ən çox qoyulan adların statistikasıdır. Son beş ildə isə 13 min 231 oğlan və 12 min 665 qız uşağına



ən çox bu adlar qoyulub.

Xezerxeber.az-ın məlumatına görə, Bakı Dövlət Universitetinin (BDU) Sosiologiya kafedrasının professoru Rafael Həsənov hesab edir ki, əslində eyni adlara üstünlük verilməsi nöqsan kimi qəbul olunur, çünki bu fakt həmin xalqda adqoyma probleminin göstəricisidir. Bununla yanaşı, eyni adlı insanların bir sinifdə və ya auditoriyada olması, bir məhəllədə yaşaması, yaxud da eyni ofisdə işləməsi bu adların səsləndirilməsi zamanı kommunikasiya prosesində problemlər də yaradır.

Sosioloq qeyd edir ki, son ayda Azərbaycan xalqı öz tarixinin ən şanlı səhifəsini yaşayıb. Bu tarixi yazan qəhrəmanların adlarını da daim yaşatmaq daha məsləhətlidir.

Rafael Həsənovun fikrincə, bu sahədə müəyyən tədqiqat işlərinin aparılması vacibdir. Ad qoyan valideynlərin yaş kateqoriyaları, yaşadıqları zonalar, təhsil səviyyələri və digər amillər müəyyənləşdirilməlidir. Eyni zamanda bununla bağlı təbliğat işləri aparılmalı və bu sahədəki boşluqların aradan qaldırılması üzrə işlər görülməlidir.

## İnfeksiyalara yoluxan gözlərdə hansı xəstəliklər yaranır?

Soyuq havalarda immunitet zəifləməsi nəticəsində bədənin həssas orqanı olan gözlər narahat olur və qızartı, qaşınma, sulanma, iltihab və şişkinlik kimi əlamətlər yaranır.



Respublika Neyrocərrahiyyə Xəstəxanasının həkim-oftalmoloqu Gültəkin Məmmədovanın AZƏRTAC-a dediyinə görə, gözlərdə belə hallar daha çox payız-qış aylarında fəallaşan infeksiyalarla əlaqədardır: "Yaranan həmin əlamətlər müxtəlif infeksiyalara yoluxma nəticəsində baş verə bilər. Virus, bakterial və göbələk mənşəli infeksiyalar həmin xəstəliklərin yaranmasına səbəb olur. Xüsusən də payız-qış aylarında mövsümü qriplərin törətdiyi virus konyuktivitlər zamanı xəstələrdə həmin şikayətlər müşahidə oluna bilər".

Həkim-oftalmoloq qeyd edib ki, gözlərin gigiyenasına da xüsusi diqqət yetirmək, nəmləndirici göz damcılarından istifadə etmək lazımdır. Eyni zamanda, təkcə günəşli havalarda deyil, soyuq havalarda da şüalara qarşı qoruyucu eynəklərdən istifadə edilməlidir: "Gözlərdə mövsümü qriplərin törətdiyi fəsadlara daha çox rast gəlinir. Xəstələrdə olan həmin fəsadlar gözdə qızartı, qaşınma, sulanma, şişkinlik kimi əlamətlərlə büruzə verə bilər. Şəxsi gigiyena qaydalarına riayət etməyənlərlə təması məhdudlaşdırmaq və xəstəliyin ilkin əlamətləri müşahidə olunan kimi həkimə müraciət etmək məsləhətdir. Xəstəliyə yoluxmanın qarşısını almaq üçün əllərin tez-tez yuyulması, şəxsi gigiyena qaydalarına riayət olunması, əllərin gözə, üzə və buruna toxunmasının qarşısı alınmalıdır".

Soyuq hava göz ətrafındakı damarların daralmasına da səbəb ola bilər. Göz infeksiyaları keçici olduğu üçün həmin xəstələrin dəsmal, kosmetik və digər vasitələrindən istifadə etmək olmaz.

## Cinayət törətməkdə şübhəli bilinən 13 nəfər saxlanılıb

Ötən gün ərzində törədilmiş 19 cinayətin üstü respublikanın daxili işlər orqanları tərəfindən "isti izlər"lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış iki cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə beş nəfər, o cümlədən borclu şəxs qismində axtarılan üç nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.



Respublikanın avtomobil yollarında baş vermiş bir ağır yol-nəqliyyat hadisəsi nəticəsində bir nəfər ölüb, bir nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 11 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 13 nəfər saxlanılıb.

## Mağazalardan pul oğurlayan iki nəfər yaxalanıb

Suraxanı rayonunda oğurluqla məşğul olan şəxslər yaxalanıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Suraxanı Rayon Polis İdarəsinin 30-cu polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində rayon ərazisindəki



mağazaların birindən 200 manat məbləğində pul oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş A.Həsənov və Kürdəmir rayon sakini C.Rüstəmov saxlanılıblar.

Onlarla bağlı aparılmış tədbirlər nəticəsində həmin şəxslərin daha bir mağazadan 500 manat məbləğində pul oğurlamaları da müəyyənləşdirilib. Faktla bağlı təhqiqat davam edir.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600